

## Aİ və Azərbaycan əlavə qaz tədarükü ilə bağlı saziş hazırlayır

3

Səs
№ 123 (6564) 15 iyul 2022-ci il. Qiyməti 60 qəpik

# Şəhid ailələrinə və qazilərə sosial dəstək davamlıdır!



2

Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun...

# Qlobal Qərb-Şərq qarşıdurması



"Soyuq Müharibə-2" və "Qoşulmama Hərəkatı - 2" haqqında nəyi bilməliyik?

6



## Mətbuatın dünəni, bu günü və sabahı

5



## ERMƏNİ MEDİASI: "50 erməni əsgərinin qalıqları morqlarda çürüyür"

11



## Qida zəhərlənmələri nədən baş verir?

8



11

## "Tetahilinq" nədir və psixologiyamıza necə təsir göstərir?



## 15 gündə yol infrastrukturu ilə bağlı 3 sərəncam

7

## Erməni terrorçuları Xankəndinə toplaşır: antiterror əməliyyatı qaçılmazdır!



## Bakı çimərliyində bir günlük dincəlməyin Şok qiyməti!



16

# Şəhid ailələrinə və qazilərə sosial dəstək davamlıdır!



Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Dövlətimiz həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərmək prinsipini qoruyub saxlayır. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində qeyd etdiyi kimi, "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir".

Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür. Ötən dövr ərzində şəhid ailələri və müharibə əlilləri üçün icra olunan ən geniş və mühüm fəaliyyətlərdən olan mənzillə təminat proqramı 5 dəfə genişləndirilib. Şəhid ailələri və müharibə əlillərinə 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Ümumilikdə isə 12 500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Həmin kateqoriyadan olan şəxslərin mənzillə təminat prosesi davamlı olaraq həyata keçirilir və 2025-ci ilə qədər yekunlaşdırılması üçün dövlət tərəfindən vacib addımlar atılır. Bu il daha 1500 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.



## HƏR BİR VƏTƏNDAŞA MÜNASİBƏTDƏ ƏDALƏT VƏ HUMANİZM PRİNSİPİ

Əlbəttə ki, dövlət başçısının bu kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi məmnunluq yaradır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir.

Müharibə əlillərini əhatə edən mühüm proqramlardan biri də avtomobillə təminatdır ki, bu proqram çərçivəsində 7400 müharibə əlili avtomobillə təmin olunub. Bu addım onu göstərir ki, dövlətimiz tərəfindən bu qəbildən olan insanlar təkcə evlə təmin olunmur, eləcə də bu və ya digər sosial addımların atılması da onların təminatına yönəldilib.

## QAZİLƏRİN NÖVBƏTİ QRUPU 4-CÜ NƏSİL YÜKSƏK TEXNOLOGİYALI PROTEZLƏRLƏ TƏMİN OLUNUBLAR

Şəhid ailəsi üzvləri və müharibə iştirakçılarından ibarət 93 min nəfərə 103 min sosial ödəniş təyin olunub. Bu dəstək mexanizmi həmin şəxslərin gündəlik həyatında hiss olunan və mühüm rol oynayan ödənişlərdir. Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin dekabrında verdiyi tapşırığına əsasən müharibə əlilləri yüksək texnologiyalı protezlərlə təmin edilməkdədirlər. Daha bir qrup müharibə əlili yüksək texnologiyalı müasir 4-cü nəsil protezlərlə təmin edilib. Ötən dövrdə 324 nəfər müharibə əlili yüksək texnologiyalı 338 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib. Onlardan 124 nəfəri I Qarabağ müharibəsi əlilləri və Vətən müharibəsinə qədərki dövrdə hərbi səbəblərlə əlaqədar əliliyi olan şəxslərdir ki, 128 ədəd müasir potezlə təmin olunublar.

200 nəfəri isə 44 günlük Vətən müharibəsində və sonrakı dövrdə yaralanaraq ətrafları amputasiya olunmuş qazilərdir və həmin şəxslərə ümumilikdə 210 ədəd yüksək texnologiyalı müasir 4-cü nəsil protez verilib. Ümumilikdə, Vətən müharibəsi qazilərinin protezlə təminat prosesi yekunlaşmaq üzrədir. Təqdim edilən "Genium" tipli yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir. Həmin protezlər istifadəçiyə köməkçi vasitələr olmadan sərbəst və inamlı hərəkətə, hərəkətin tam və daha



dəqiq tənzimlənməsinə imkan verir.

1400 müharibə əlili 17 min reabilitasiya vasitəsi, 5 min ailə sosial-psixoloji, 1500 şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə göndəriş verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub.



## POSTMÜHARİBƏ DÖVRÜNDƏ 3 MİN QAZİYƏ ƏLİLLİK TƏYİN EDİLİB

Bütün bunlarla yanaşı, son 3 ildə 160 mindən çox şəxsə, postmüharibə dövründə 3 min qaziyə əlillik təyin edilib. Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, eləcə də əlillik sahəsində yeni meyarlar tətbiq olunub. 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində yeni meyarlar tətbiq olunub. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndirilir. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürülür. Göründüyü kimi, şəhid ailələrinə və qazilərə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır.

Təbii ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Aİ və Azərbaycan əlavə qaz tədarükü ilə bağlı saziş hazırlayır

**_Avropa İttifaqı (Aİ) Rusiyadan asıllığı azaltmaq üçün Azərbaycanla qeyd-şərtsiz qaz idxalı sazişi imzalamağa hazırlaşır. SİA xəbər verir ki, bu barədə "EUobserver"in nəzərdən keçirdiyi saziş layihəsində deyilir. Layihədə bildirilir ki, Aİ və Azərbaycan arasında strateji tərəfdaşlıq Xəzər təbii qazının Avropa İttifaqına və ola bilsin ki, Qərbi Balkan ölkələrinə tədarükünü diversifikasiyanı artırmasını nəzərdə tutur._**



Sənədə əsasən, tərəflər ikitərəfli təbii qaz ticarətini, o cümlədən Cənub Qaz Dəhlizi ilə Avropa İttifaqına ixrac vasitəsilə 2027-ci ilə qədər kommersiya məqsədəuyğunluğu və bazara tələblərinə uyğun olaraq hər il ən azı 20 milyard kubmetr qaz həcmində dəstəkləməyi hədəfləyirlər. Bu, Cənub Qaz Dəhlizinin boru kəmərləri şəbəkəsinin genişləndirilməsinə əhəmiyyətli sərmayənin yatırılmasını nəzərdə tutur. Ancaq saziş layihəsində investisiya məbləğinin həcmi açıqlanmır.

Cənub Qaz Dəhlizi Xəzər dənizindən Türkiyə ərazisindən Cənub-Şərqi Avropaya uzanan boru kəmərləri şəbəkəsidir. Cənub Qaz Dəhlizi boru kəmərləri şəbəkəsinin sonuncu hissəsi olan Trans-Adriatik Qaz Kəməri (TAP) ötən il İtaliya kimi Avropa ölkələrinə 8 milyard kubmetrdən çox Azərbaycan qazı çatdırıb.

Layihədə deyilir ki, hər iki tərəf Avropaya tədarükləri artırmaq üçün bu şəbəkəni genişləndirmək məqsədi ilə maliyyələşdirməni təşviq edəcək. Həmçinin əlavə olunur ki, bu cür investisiyalar gələcəkdə emissiyaların istiləşməsinin qarşısını almaq üçün aşağı karbonlu qazları nəql edə bilməlidir. Tədarükün artması həm də Azərbaycandan öz qaz hasilatını genişləndirməyi tələb edəcək.

Memorandum həmçinin Aİ ilə Azərbaycan arasında, o cümlədən Qara dəniz və Naxçıvan Muxtar Respublikası vasitəsilə qarşılıqlı elektrik əlaqəsinin inkişafını nəzərdə tutur. Sənəddə mövcud infrastrukturu gələcəyə davamlı və hidrogenə hazır vəziyyətə gətirmək, həmçinin metan emissiyalarını və ətraf mühitin çirklənməsini azaltmaq ehtiyacından bəhs edilir. "Tərəflər, həmçinin, əks təqdirdə havaya atılmış təbii qazın yığılması, yandırılması və ya atmosferə sızması üçün sxemlərin yaradılmasını dəstəkləyir", - layihədə bildirilir.

Layihədə qeyd edilir ki, Aİ-nin bütün iqlim ambisiyalarına baxmayaraq, təbii qaz Avropa İttifaqında istifadə olunmağa davam edəcək: "Məqsəd qiymət mexanizmləri vasitəsilə təbii qazın toplanmasının stimullaşdırılması olmalıdır. Azərbaycanla bağlanan müqavilə hüquqi qüvvəyə malik deyil. Lakin Aİ-nin investisiyaları və ikitərəfli münasibətlərin inkişafı üçün gündəliyi müəyyən edir. Bunun ardınca mütəmadi olaraq texniki səviyyədə və nazirlər səviyyəsində görüşlər keçiriləcək",- memorandumda deyilir. Bu, iyun ayında Aİ-nin Misir və İsraillə oxşar razılaşmasından irəli gəlir.

Anlaşma Memorandumunun layihəsində Rusiyanın Ukraynaya müdaxiləsi və ya Aİ-nin sanksiyalarına cavab olaraq qaz tədarükünü dayandırması barədə heç bir söz yoxdur. Lakin o, regional gərginliyə eyham vurur və "ərazi bütövlüyünə, beynəlxalq sərhədlərin toxunulmazlığına, müstəqilliyinə, bir-birinin suverenliyinə, o cümlədən Aİ-yə üzv olan bütün dövlətlərə hörmət və dəstək" ifadə edir.

Lakin sənəd regional gərginliyə eyham vurur və "ərazi bütövlüyünə, beynəlxalq sərhədlərin toxunulmazlığına, müstəqilliyinə, bir-birinin suverenliyinə, o cümlədən Aİ-yə üzv olan bütün dövlətlərə hörmət və dəstəyi ifadə edir.

Aİ-nin sabit, etibarlı və proqnozlaşdırıla bilən qaz təchizatına ehtiyacı barədə dəfələrlə danışılır. Müqavilə layihəsində deyilir ki, Aİ və Azərbaycan həmçinin bərpa olunan enerjini təşviq etmək və hidrogenlə gələcək ticarəti müzakirə etmək üçün elektrik enerjisi əlaqələrinin inkişafını araşdıracaqlar.

# "YUNESKO-nun ədaləti, vicdanı varsa,..."




**"İrəvan şəhəri birmənalı olaraq Azərbaycan şəhəridir. İrəvan şəhəri ilə bağlı kifayət qədər mənbə var. Bu mənbələr həm fars, həm osmanlı, tarixin sonrakı dövrlərində isə rus mənbələridir". Bu sözləri SİA-ya açıqlamasında deputat Anar İsgəndərov deyib.**

Onun sözlərinə görə, Təpəbaşı məhəlləsi İrəvanın 4 məhəlləsindən biridir: "Burada olan yer, dərə və çay adları birmənalı olaraq Azərbaycan adlarıdır. Ermənilərin sayı tarix boyu barmaqla sayılıb. 1828-ci il fevral ayında Türkmənçay müqaviləsindən sonra ermənilər bu ərazidə söz sahibi oldu. Bu müqavilədən sonra minlərlə erməni İran ərazisindən bu torpaqlara köçürüldü. Keçmiş İrəvan xanlığının ərazisində erməni vilayəti yaradıldı. 1849-cu ildə İrəvan quberniyası yaradıldı. Amma bu vaxta qədər ərazi birmənalı olaraq İrəvan xanlığının ərazisi idi. İrəvan şəhərinin taleyində və tarixində mühüm rol oynayanlardan biri də tarixi-mədəni abidələrdir. Bu ərazidə kifayət qədər məscidlər var idi. Bu məscidlərdən bugünə qədər yeganə qalan məscid Göy Məsciddir. Bu məscid Azərbaycanın İrəvan xanlığının mövcudluğu dövründə tikilən məsciddir. Artıq 1988-ci ildən azərbaycanlıların Ermənistandan çıxarılması, qovulması başlandı. Orada təkcə insanların əmlakı orada qalmadı, min illər boyu azərbaycan türklərinin yaratdığı dini, tarixi abidələri məhv edildi. Çox təəssüflər olsun ki, YUNESKO Ermənistanı ittiham etməkdənsə, qınamaqdansa, əsassız çıxış edərək bildirir ki, guya Qarabağ ərazisində ermənilərin tikdiyi tarixi abidələr var və azərbaycanlılar həmin abidələri məhv edib. Əlbəttə ki, 44 günlük Vətən müharibəsindən sonra bunlar sadəcə bir cəfəngiyyatdır. YUNESKO-nun ədaləti, vicdanı varsa, ermənilərin Kəlbəcərdən çıxanda kəndlərini oda verməlırini işıqlandırsın".

*Arzu Qurbanlı*

# "Bütün şəhid ailələri və müharibə əlilləri mənzillərlə təmin olunacaq"

"Dövlət şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində proqramlar icra edir. Bu kateqoriyadan olan şəxslərə 11 minə qədər mənzil və 7500-dən çox avtomobil verilmiş, qazilər sağlamlıqlarının bərpası üçün müxtəlif reabilitasiya tədbirlərinə cəlb olunur. Bununla yanaşı, son günlər təəssüf ki, bəzi qazilər arasında müəyyən narazılıqlar və hətta intihar halları da baş vermişdir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, qazinin intihar etməsi ağır dərddir. Bu intiharların və narazılıqların səbəbləri haradan qaynaqlandığını hüquq-mühafizə orqanları tərəfindən araşdırılaraq hüquqi qiymət veriləcəkdir: "Bununla yanaşı, dövlətin həyata keçirilməyə başladığı sosial proqramlar davam etdirilir və ehtiyacı olan bütün şəhid ailələri və müharibə əlilləri mənzillərlə təmin olunacaqdır. Sadəcə, bu proqramın qısa bir zamanda icra edilməsi fiziki mümkün olmadığından müəyyən vaxt aparacaqdır. Şəhid ailələri və qazilərin müraciət etdiyi hər bir dövlət qurumu bu kateqoriyadan olan insanların müraciətlərini dərhal araşdırmalı və müvafiq köməyin göstərilməsi üçün hərəkətə keçməlidir. Dövlət başçımız bu istiqamətdə xüsusi tapşırıq vermiş və bu məsələləri nəzarət altında saxlayır. Yəni, bəzi narazılıqların olması reallıqdır və çox təəssüf ki, belə həssas məsələləri bəzi siyasi partiyalar və bloggerlər əlillərin müəyyən məişət sosial problemlərindən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Həssas təbəqənin zəif nöqtəsindən bəhrələnib siyasi maraqların həll edilməsi üçün istifadə edilməsi heç bir siyasətçiyə başucalığı gətirmir. İnsanları dövlətdən narazı salma hallarını əvvəllər də müşahidə etmişik. Dövlət radikal qüvvələrin istəklərini yox, xalqın istəklərini reallaşdırır. Ona görə də, ölkəmizdə sarsılmaz xalq iqtidar birliyi var. Belə radikal qüvvələr bilməlidirlər ki, hər bir şəhid ailəsinin və müharibə əlilinin sosial problemini ancaq dövlət həll edir. Narazılıq salmaq istəyən qüvvələrin cəhdləri ancaq özünü yormaqdan başqa bir şey olmadığını hesab edirəm".

*Gülyana*

# "Bütün nailiyyətlərin əsasında Ulu Öndərin müəyyənləşdirdiyi siyasət dayanır"

Dahi lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə xalqın min illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilib, Azərbaycan müstəqilliyə qovuşub. "Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu il iyulun 14-də respublikamızda siyasi hakimiyyətə gəlişi Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir. Çünki məhz bu tarixdən etibarən Azərbaycan tənəzzüldən milli inkişaf və intibah yoluna qədəm qoydu. O dövrdə istər sosial-iqtisadi, mənəvi-psixoloji tənəzzül yaşayan Azərbaycan ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə hər bir sahədə dirçəldi, eləcə də mənəvi-psixoloji mühit sağlamlaşdı, milli şüurda oyanış baş verdi. Bununla da Azərbaycanın müstəqilliyinin gerçək təməlləri atıldı". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.



"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır", - deyən xalqımızın böyük oğlu Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını, milli dövlətçiliyin konsepsiyasını yaradıb.

Millət vəkilinin sözlərinə görə, azərbaycançılıq məfkurəsinin müəllifi kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Məhz ümummilli lider Heydər Əliyevin siyasi kursu sayəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynayıb və onu dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevirib. Ulu öndər Heydər Əliyev dövlət başçısı və siyasi xadim kimi beynəlxalq vəziyyəti düzgün təhlil edərək, Azərbaycan dövlətinin müstəqilliyinin qorunması və inkişafı yolunda müstəqil siyasət apararaq xalqı öz ətrafında birləşdirməyi bacarıb. Ölkə rəhbəri kimi Heydər Əliyevin əsas siyasi kursu da bu prinsiplər əsasında həyata keçirilirdi. O, Azərbaycan xalqının hər bir nümayəndəsinin rahat, azad və əmin-amanlıq şəraitində yaşaması üçün səyini əsirgəmir, bu istiqamətdə iqtisadi-siyasi, sosial-mədəni dövlət siyasətini həyata keçirirdi. Gündən-günə iqtisadi qüdrətini artıran, dünya gücləri qarşısında qamətini qürurla dik tutmağı bacaran gənc bir dövlətin həqiqi qurucusu və lideri Heydər Əliyevin sonrakı dövrlərdə həyata keçirtdiyi bütün islahatların kökündə də məhz bir amal, bir məqsəd dayanırdı. Bu da hər bir azərbaycanlının müstəqil, sağlam və rahat yaşayışını təmin etməkdən ibarət idi.

S.Fətəliyeva qeyd edib ki, dünyada söz sahibi olan ölkələrin Azərbaycanla qarşılıqlı müqavilələr bağlamaları, Azərbaycanın həyata keçirdiyi irimiqyaslı layihələrdə iştirak etmək istəmələri təkcə durmadan inkişaf edən bir ölkənin artan nüfuzu və iqtisadi imkanları deyildi, həm də rifah halı yüksələn, yaşayış şəraiti yaxşılaşan Azərbaycan vətəndaşlarının həyata keçirilən bu proseslərdə birbaşa tərəf kimi iştirak etmək hüquqlarının var olması idi. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması isə Heydər Əliyev dövlətimiz üçün ən böyük xidmətlərindən bir oldu.

"Ulu öndər Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində dövlətimiz parlaq qələbə qazanmaqla Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Artıq bütün dünya bu reallıqları qəbul edir. Qazanılan şanlı zəfər dövlətimizin qarşısında yeni üfüqlər, perspektivlər açır. Beləliklə, Azərbaycanı qarşıda da yeni - yeni zəfərlər gözləyir. Bu nailiyyətlərin əsasında isə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət dayanır",- deyə S.Fətəliyeva vurğulayıb. yap.org.az

# Milli tariximizin dönüş yolu!



53 il öncə başlanan bu yol Ulu Öndərimiz Heydər Əliyevin xalqı, milləti ilə bütünləşməsi, bütövləşməsi yolu oldu

Artıq xalqımız iki ildir ki, 1969-cu il iyulun 14-ü Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması tarixini daha fərqli ovqatla, qalib kimi qarşılayır. Məhz bugünkü günün memarı olan Ümummilli Liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən Ulu Öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Azərbaycan Ordusu rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gün ərzində xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu, Ermənistanı diz çökdürdü. Və 2020-ci ilin noyabrın 10-da Ermənistan dövləti kapitulyasiya oldu. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Biz doğma Qarabağımıza qovuşdu.

## 1969-CU İL İYULUN 14-DƏN BAŞLANAN YOL HEYDƏR ƏLİYEV EPOXASININ UĞURLU DAVAMIDIR

Bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Müasir Azərbaycan tarixində yeni eranın başlanğıcı sayılan 14 iyul 1969-cu il böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir. Həmin dövrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni durumu heç də ürəkaçan deyildi. O zamankı sovetlər birliyinin ən ucqar respublikalarından biri kimi səciyyələnən Azərbaycanda idarəetmədə çoxlu nöqsanlara yol verilmiş, iqtisadiyyat geri qalmış, sosial-mənəvi mühit şəffaflıqdan uzaq düşmüşdü. Belə bir vaxtda Heydər Əliyevin respublikanın ali vəzifəsinə seçilməsi tariximiz və taleyimiz, Vətənimiz və xalqımız üçün, sözün əsl mənasında, dönüş və xilas, möhtəşəm tərəqqi və yüksəliş erasının əsasını qoydu.

## XALQIN ETİMADINI ONDAN BAŞQA HEÇ KİM DOĞRULDA BİLMƏZDİ

Belə bir dahi insanın Azərbaycanda rəhbərliyə başlaması respublikanın xilası üçün yeganə düzgün yol idi. 1969-cu ildən başlanan böyük quruculuq və yüksəliş mərhələsi qısa müddətdə Azərbaycanı bütün sahələrdə geniş tərəqqi yoluna çıxardı. Azərbaycanda Heydər Əliyevin birinci hakimiyyəti dövründə (1969-1982) sosial, siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılmış, qüdrətli iqtisadi potensial, maddi-texniki baza yaradılmış, əhalinin rifahı xeyli yüksəlmiş, elm, təhsil, mədəniyyət güclü inkişaf prosesi keçmiş, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox mühüm işlər görüldü. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə sənayedə 581 adda yeni tipli maşın, avadanlıq, aparat, cihaz nümunələri yaradılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş sex, istehsal sahəsi və i.a. yaradılmışdır. 1970-ci ildən başlayaraq Azərbaycan sənaye məhsulunun artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl mövqeyə çıxmışdı. Respublikada kənd təsərrüfatı və onun xam malını emal edən sahələr böyük sürətlə inkişaf edirdi. 1970-1982-ci illərdə kənd təsərrüfatı məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə artmışdı. Bütün bunlar inkişafın ümumiləşdirilmiş göstəricisi olan milli gəlirin sürətlə artmasına səbəb oldu. Eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin qətiyyəti, siyasi iradəsi hesabına gerçəkləşdi. Möhtəşəm fəaliyyəti ilə şöhrətlənən dahi Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bütün bunlar isə 1969-cu il iyulun 14-dən başlanan şanlı Heydər Əliyev epoxasının vüsət və əzəmətinin parlaq təzahürü idi. Azərbaycan xalqının böyük oğlu mərkəzi hökumətdə tutduğu vəzifənin imkanlarından istifadə edərək, İttifaq əhəmiyyətli bir sıra böyük layihələri Bakıya yönəltdi. Həmin illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onu daha da şöhrətləndirdi.

Mixail Qorbaçov SSRİ-də siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi. Baş katiblə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən 1987-ci ildə tutduğu vəzifələrdən istefa verdi. Bundan bir il sonra Dağlıq Qarabağda separatçılıq hərəkatı baş qaldırdı, Azərbaycanın qara günləri başladı. Yəqin ki, o vaxt Heydər Əliyev rəhbərlikdə olsaydı, Azərbaycan xalqı Qarabağ problemi ilə, qara Yanvarla və digər faciələrlə üzləşməzdi. 1990-cı illərin əvvəlində - Vətənin ağır günlərində Ulu Öndər Azərbaycana qayıtdı. O vaxtkı rəhbərlik onun Bakıya yolunu kəsdiyi üçün doğulub boya-başa çatdığı Naxçıvana getdi. Naxçıvan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Yetmiş ildən sonra ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı ucaltdı.

## 53 İL - ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XALQI, MİLLƏTİ İLƏ BÜTÜNLƏŞMƏSİ, BÜTÖVLƏŞMƏSİ YOLU

Həqiqətən də, bu illərin heç birində O, xalqından ayrı, kənarda olmayıb. Və ən əsası odur ki, xalq, millət bu illər ərzində heç vaxt özünü Ümummilli Liderimiz Heydər Əliyevdən, Onun böyük və müdrik rəhbər dühasından ayrı görməyib. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı bu illərdə özünü tənha, arxasız və güvənsiz hiss etməyib. Təsadüfi deyil ki, Azərbaycan xalqı 1993-cü ilin yayında müstəqil dövlətçiliyimiz, milli gələcəyimiz uçurumun kənarında dayananda, Azərbaycanı vətəndaş qarşıdurması, zülmət və parçalanma gözləyəndə, yenə də öz gerçək Liderinə - Heydər Əliyev müdrikliyinə üz tutdu. Bu, xalqın liderinin xalqın çağırışına səs verib, Onun hüzuruna qayıdışı idi. Bu, eyni zamanda, xalqın artıq qəribsədiyi güvənli, təhlükəsiz və arxayın həyata qayıdışı, sabaha inam və etimadının bərpası idi...

## AQRAR ƏYALƏTDƏN İNKİŞAF ETMİŞ SƏNAYE ÖLKƏSİNƏ DOĞRU

Müstəqilliyi əldə etmək üçün isə möhkəm təməl, iqtisadi inkişaf lazım idi. Buna görə də 1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi Ulu Öndərimizin siyasi xəttinin əsasını təşkil edirdi. Həmin illərdə isə iqtisadi vəziyyət acınacaqlı idi. Belə ki, ötən əsrin 60-cı illərində ölkəmiz iqtisadi vəziyyətinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Sənaye və kənd təsərrüfatı sahələrinin günün tələblərinə cavab verməməsi əhalinin güzəranının getdikcə pisləşməsi ilə nəticələnmişdi. 1969-cu ildə Sovetlər Birliyində ümumi məhsulun həcmi 1965-ci ilə nisbətən 43 faiz çoxaldığı halda, Azərbaycanda bu artım cəmi 29 faiz olmuşdu. Baxmayaraq ki, ölkəmizin imkanları yetərincə idi, ancaq təbii sərvətlərimiz digər müttəfiq respublikaların inkişafına yönəldilir, Azərbaycan isə məhvə sürüklənirdi. Nəticədə, ötən əsrin 50-ci illərindən sonra SSRİ-də başlanan sənayeləşmə Azərbaycandan yan keçir, ölkədə işsizlərin sayı artır, gənc əhalinin bir qismi iş dalınca ittifaqın müxtəlif şəhərlərinə üz tuturdu. Ulu öndərimizin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilib. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilib, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunub. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artıb. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilib. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.Həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılıb, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanıb.

## 1969-1982-Cİ İLLƏR - MÜSTƏQİL DÖVLƏTÇİLİYİMİZ ÜÇÜN HƏYATİ ƏHƏMİYYƏT KƏSB EDƏN MİLLİ KADR HAZIRLIĞI

1969-1982-ci illər müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadr hazırlığı ön planda olub. Ümummilli liderimizin hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılıb, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılıb. Həmin dövrdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gənc ali təhsil alıb. Ulu Öndər ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları atıb, imperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail olub. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən 54 ən qabaqcıl ali hərbi məktəblərə və akademiyalara hərbi təhsil almağa göndərilib, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapıb. Ümummilli Liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynayıb. Naxçıvanda dövlət quruculuğu prosesinin getdiyi həmin dövrdə ölkəmiz hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Azərbaycana "rəhbərlik edənlər" ölkənin və xalqın gələcəyini deyil, öz şəxsi mənafelərini güdürdülər. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana - ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də Ulu Öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin əsasını qoydu, ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Azərbaycan yenidən əsası 1969-cu ildən başlanan inkişaf yoluna qayıtdı.

## HEYDƏR ƏLİYEV İDEYALARININ İŞIĞINDA DİNAMİK İNKİŞAF EDƏN, ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA OLUNAN AZƏRBAYCAN PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ ALTINDA YENİ NAİLİYYƏTLƏR QAZANIR

Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı cənab İlham Əliyevə əmanət edib. Bu gün ölkəmiz Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında yeni nailiyyətlər qazanır. Azərbaycan belə bir möhkəm zəmin əsasında bu gün də inkişaf edir. Böyük iftixar hissi ilə qeyd edə bilərik ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ümummilli liderimizin siyasi kursu uğurla davam etdirilir. Bu siyasətə sədaqətlilik Azərbaycan xalqında parlaq gələcəyə inamını daha da artırıb. Prezident İlham Əliyev son 19 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz Ulu öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Təsadüfi deyil ki, Azərbaycanın Vətən müharibəsi, xüsusən, misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələri tərəfindən öyrənilməkdədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Liderin məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla söylədiyi bu sözlər yada düşür: "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik". Ruhun şad olsun, ulu öndər, artıq 28 ildən sonra Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.Bir sözlə, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi yolla inkişaf edən müstəqil Azərbaycan bundan sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər əldə edəcəkdir. Bu inkişafa gedən yol isə yenə də Heydər Əliyev yoludur! Çünki Heydər Əliyev yolu Azərbaycanı daim yeni-yeni uğurlara, nailiyyətlərə, zəfərlərə aparır!

**RƏFİQƏ KAMALQIZI**

# Mətbuatın dünəni, bu günü və sabahı



**1875-ci il iyulun 22-də Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin işıq üzü görməsi ilə Azərbaycan milli mətbuatının, maarifçiliyin və milli kimliyi tanıtma prosesinin təməli qoyuldu. Artıq 169 ildir mətbuatla maarifçilik prinsipləri ilə paralel addımlayır. Müasir dövrün mətbuat tarixçiləri də əslində milli mətbuatın deyil, milli kimliyimizn tarixini araşdırırlar. SİA mövzu ilə bağlı media kapitanlarının fikirlərini öyrənməyə çalışıb**

**Jurnalist Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli** bildirib ki, Azərbaycan mediası, həmişə olduğu kimi, yenə də özünün uğurlu fəaliyyətini davam etdirir: "Mediamız Azərbaycan ictimaiyyətinin, cəmiyyətinin keyfiyyətli informasiya ilə təmin olunması funksiyasını uğurla yerinə yetirir. Yaşadığımız dövr yeni media dövrüdür. Media texnoloji baxımdan inkişaf dövrü keçir və buna uyğun olaraq özünün nəzəri yanaşmasını yeni dövrün tələblərinə uyğunlaşdırır. Yaxşı haldır ki, 2022-ci ilin fevral ayında cənab Prezident Azərbaycanda Media Haqqında Yeni Qanun imzaladı. Bu qanun yeni media dövrünə adaptasiya olunan Azərbaycan mediasının hüquqi statusunu və təşkilatı formasını müəyyən edir. Həmçinin, jurnalistikanın statusunun müəyyənləşməsi üçün kifayət qədər töhfələr vermiş olur. Bu qanunvericiliyin qüvvəyə minməsindən sonra Azərbaycanda jurnalistlərin və media subyektlərinin missiyası, cəmiyyətdəki rolu və statusu barədə kifayət qədər aydın təsəvvür formalaşır və media da buna uyğunlaşır.



Azərbaycan mediasının yeni dövrə uyğunlaşması üçün dövlətimiz yeni proqramlar da icra edir. Media İnkişaf Agentliyi vasitəsilə KİV subyektlərinə təkmilləşmə üçün maliyyə dəstəyi göstərilir. Bu dəstək 50-dən yuxarı KİV-ə göstərilir ki, onlar da öz fəaliyyətlərini yeni dövrün tələblərinə uyğun qurmaq, inkişaf etmək və cəmiyyəti lazım olan informasiya ilə təmin etmək üçün bu vəsaitdən istifadə edirlər. Azərbaycanda həm ənənəvi, həm də sosial media inkişaf edir. Əsas odur ki, ölkəmizdə media mühiti normaldır. Yəni, medianın qanunvericilik bazası, təhlükəsizlik normaları, etik standartlar və s. liberaldır. Buna uyğun olaraq Azərbaycan mediası həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişaf edir. Azərbaycanda informasiya təminatına ictimai rəyin sabit tutulmasına baxsaq və bu ictimai rəyin sabit tutulmasında medianın rolunun olduğunu nəzərə alsaq, Azərbaycan mediası öz üzərinə düşən missiyanı uğurla davam etdirir. Dövlətimiz medianın təkmilləşməsi, yaşaması və keyfiyyətli informasiya istehsal etməsi üçün ona lazımi dəstək və qayğını göstərir".

**"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə** qeyd edib ki, Azərbaycan mətbuatı cəmiyyətə ayna tutan bir institut olaraq mövcudluğunu davam etdirir: ""Əkinçi" ənənələri üzərində bərqərar olan mətbuatımızın milli-dövlətçilik məsələlərinə həssas yanaşması təqdirəlayiqdir. Xüsusilə 44 günlük Vətən müharibəsi dövründə və ondan sonrakı həssas dönəmdə mətbuatımızın necə faydalı fəaliyyətlə məşğul olduğunu gördük.



Peşəkarlıq vərdişlərinin yüksələn xəttlə inkişaf etməsi Azərbaycan mətbuatının gələcəyi ilə bağlı nikbin ovqat yaradır. Medianın İnkişafı Agentliyinin yaranması ilə bu proses yeni mərhələyə qədəm qoyub. hazırda MEDİA jurnalistlər arasında peşəkarlığın artması sitiqamətində vaciv işlər görür. Əminliklə deyə bilərik ki, Azərbaycanda peşəkar KİV-lərin sırası sürətlə genişlənir. Mətbu sferada tədricən sağlam mənəvi mühit yaranır.

Bayram ovqatı mətbuatın problemlərini gözardı etməyə əsas vermir. Jurnalist peşəkarlığının daha da artırılmasına, KİV-lərin maddi-teüxniki bazasının gücləndirilməsinə ehtiyac var. Mətbuatın maddi cəhətdən müstəqil olması KİV-lərin məmur-oliqarxlardan asılılığına son qoyacaq, bu institutun sözün həqiqi mənasında 4-cü hakimiyyətə çevrilməsini sürətləndirəcək. Reklam bazarının inkişafı bu prosesi sürətləndirə bilər".

**"7news.az" xəbər portalının baş redaktoru Səbuhi Abbasov** bildirib ki, Azərbaycanda ilk demokratik mətbuatın əsasını Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub: "Mətbuata qarşı olan bu xoş siyasət Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Əlbəttə ki, Azərbaycanda mətbuat bəzi problemlər var. Son 20 ildə mətbuat bəzi şəxslərin, qurumların inhisarına alınmışdır. Bu da Azərbaycanda mətbuatın milli mnaraqlara xidmət etməsini şübhə altına salırdı. Son iki ildə Azərbaycan mətbuatında ciddi islahatlar başlayıb. Bildiyimiz kimi KİVDF ləğv edildi. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi yaradıldı. Medianın İnkişafı Agentliyi ilk dəfə olaraq Azəirbaycan tarixində çap mediası ilə yanaşı, həmçinin onlayn mediaya da dəstək verdi. Onlayn mediada təkcə ictimai-siyasi saytlar deyil, eyni zamanda idman saytlarına da dəstək layihəsi həyata keçirildi. Artıq bu layihə uğurla davam etdirilir. Lakin biz də cəmiyyət olaraq Medianın İnkişafı Agentliyinə dəstək olmalıyıq. Çünki Medianın İnkişafı Agentliyinin ölkə rəhbərinin tapşırıq və tövsiyələrinə uyğun olaraq aparılan islahatlar dalğasında apardığı mücadiləyə ciddi şəkildə əngəl törətmək istəyənlər var. Onlar ciddi şəkildə çalışırlar ki, Azərbaycan cəmiyyəti ilə medianı üz-üzə qoysunlar, Medianın İnkişafı Agentliyinin nüfuzunu aşağı salsınlar. Biz əsla buna yol verməməli, ciddi şəkildə islahatları dəstəkləməliyik. Bundan əlavə olaraq bildiyimiz kimi hər üç ildən bir 22 iyul - Milli Mətbuat Günündə jurnalistlər üçün bina tikilir və istifadəyə verildi. Cənab Prezidentin də bildirdiyi kimi bu jurnalistlərə bir hədiyyədir, sosial dəstək layihəsidir. 2017-ci ildə Prezident İlham Əliyev çıxışında bildirdi ki, növbəti bina ən qısa zamanda tikilərək jurnalistlərə veriləcək. Çox təəssüflər olsun ki, üçüncü binanın jurnalistlərə verilməməsi ilə bağlı MEDİA Agentliyini günahlandıranlar var. Bu çox yanlış bir addımdır. Birincisi MEDİA birmənalı şəkildə Azərbaycanda sağlam jurnalistikanın formalaşması üçün bütün mümkün addımları atır. Eyni zamanda jurnalistlərə mənzillərin verilməsi prosesində də MEDİA jurnalistin maraqlarını əsas götürərək, bunun uğrunda mübarizə aparır".

**"Demokrat.az" saytının baş redaktoru Vasif Həsənli** qeyd edib ki, son bir neçə ildə medianın inkişafı danılmazdır: "Təbii ki, müəyyən çatışmazlıqlar ola bilər, çünki media uzun illər belə demək mümkünsə bataqlığın içində olub, indi onu bataqlıqdan tamamilə çıxarmaq üçün zamana ehtiyac var. Qısa zamanda müşahidə olunan dəyişikliklər gələcəyə ümidləri daha da böyüdür.

Əgər vaxtilə dövlətin mediaya maliyyə dəstəyini yalnız bəlli bir qrup mənimsəyirdisə, indi bu dəstək ədalətli şəkildə bölünür və əsas yanaşma peşəkar medianın formalaşmasıdır.



Biz bunu gündəlik fəaliyyətimizdə hiss edirik. Əgər vaxtilə medianın işinə birbaşa müdaxilə var idisə, indi bu aradan qalxır. Belə müdaxilələr peşəkar medianın işinə əngəl yaradırdı, çünki işini bilən onsuz da işləyəcək, əlavə müdaxilələrlə fəaliyyəti məhdudlaşdıranda nə peşəkarlıq qalır, nə də jurnalistika. Mediamız bu bataqlığın içindən çıxmağı bacardı. Təbii ki, burada əsas olan Prezident İlham Əliyevin siyasi iradəsidir. Dövlət başçısı ölkədə köklü islahatların tərkib hissəsi kimi media islahatları ilə bağlı da göstərişlər verdi. Bu, istər kadr dəyişikliyi, istər fəaliyyət prinsiplərinin peşəkarlaşması, istərsə qanunvericilik bazasında özünü göstərdi. Medianın İnkişafı Agentliyinin yaradılması ən uğurlu addımlardan biri hesab oluna bilər. Qısa zamanda Agentlik öz fəaliyyəti ilə bunu təsdiqlədi. Media haqqında qanunun qəbulu, qanunda nəzərdə tutulanlar da bu sahədə uğurlardan biridir. Qanun təkcə medianın peşəkar fəaliyyət imkanlarının genişləndirilməsini yox, həm də jurnalistlərin sosial-məişət həyatının yaxşılaşdırılmasına da xidmət edir. Bu da indiki şəraitdə dövlətin əsas diqqətindən biridir və ən əsası hər kəsə bərabər şərait yaradılır.

Bununla yanaşı, son bir neçə ildə Azərbaycan mediasının beynəlxalq arenada fəaliyyətinin genişləndiyini müşahidə edirik. Misal üçün, Ukrayna müharibəsində mediamızın beynəlxalq səviyyədə işləyə bilməsi bunun bariz nümunəsidir.

Bütün bunlar başlanan islahatların və peşəkar, dürüst kadrların bu islahatlarla nəzərdə tutulan hədəflərə çatmaq üçün həyata keçirdikləri fəaliyyətin nəticəsidir. Fikrimcə, qarşıdakı illərdə mediamız üçün daha da yaxşı nəticələr olacaq".

***Arzu Qurbanlı***




## "SİYASİ-İQTİSADİ REALLIQLAR"

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin vitse-prezidentin xidmətində elmi katib Coşqun Məmmədovun "SİYASİ-İQTİSADİ REALLIQLAR" adlı kitabı çap edilmişdir. Kitabda müstəqil Azərbaycan dövlətinin təcrübəsi işığında ölkəmizdə baş verən siyasi-iqtisadi və ictimai prosesləri əks etdirən müasir baxışlar və analitik təhlillər əsasında yazılmış məqalələr təqdim olunur. Kitab müasir cəmiyyətin aktual məsələləri ilə məşğul olan mütəxəssislər, elmi işçilər və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

Kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbova, nəşriyyat redaktoru Maral Poladova, texniki redaktoru Rəşid Kərimli, korrektoru isə Zərin Vəliyevadır. 188 səhifədən ibarət olan kitab "Elm və təhsil" nəşriyyatında çap edilmişdir.

***Rəfiqə Hüseynova***



# Qlobal Qərb-Şərq qarşıdurması



## "Soyuq Müharibə-2" və "Qoşulmama Hərəkatı - 2" haqqında nəyi bilməliyik?

**Dünyanın siyasi müstəvisində baş verən tektonik çatlar səbəbindən planetimizdə ikiyə cəbhəyə bölünmə prosesi artıq geridönməz xarakter alıb. Şərq və Qərb deyəndə, əlbəttə hər kəs bu cəbhədəki səngərlərdən birində müsəlman, digərində isə xristianların olduğunu düşünər. Yox, bu belə deyil. Hər iki cəbhədəkilərin dinlə, məzhəblə heç bir əlaqəsi yoxdur, onları bir-birindən uzaq tutan, aralarına nifaq salan sadəcə iqtisadi və siyasi maraqlardır. Hətta imperia maraqlarını da bura əlavə etmək olar. Bəli, iri dövlətlərin ambisiyaları dünyanın normal davranışına xələl gətirib, tektonik şokların sayını artırıb. Bu gün hansı dövlətin necə siyasət yürütdüyünü anlamaq da çətinləşib. Kiçik dövlətlər şəraitə uyğun davransalar da, iri dövlətlər xarici siyasətlərində daha sərbəst addımlar atırlar.**

Müasir dünya siyasətində yeni və daha qorxulu qarşıdurmalar reallaşmaqdadır. Dünyanın bir ucunda NATO çətiri altında olanlar, digər düşərgədə isə onların siyasətindən narazı qalanlar, daha doğrusu dünyanı təkbaşına idarə etmək iddiasında olanlara qarşı duranlar. Bir tərəfdə ABŞ, İngiltərə, Almaniya, Fransa və Avropa Birliyinə üzv olan digər ölkələr, o biri səngərdə də Rusiya, Çin, Braziliya, Hindistan və Cənubi Afrika Respublikası. Hər iki tərəfin həm siyasi çəkisi, həm də hərbi potensialı ölçüyəgəlməz dərəcədə böyükdür. Və bu güclər Ukraynada hesablaşmaq imkanı qazanıblar. Kimin qalib gələcəyi, ümumiyyətlə, qalibin olub-olamayacağı sualına cavab ya yoxdur, ya da çox dəhşətlidir.

Bu gün inkişaf etməkdə olan ölkələrin real yardıma ehtiyacı var, Qərb bunu etməyə hazır deyil. Buna görə də Çin və yenidən canlanan Qoşulmama Hərəkatı fürsətdən yararlanmağa, imkanı qaçırmamağa çalışır. İnkişaf etməkdə olan dünya ölkələri artıq tərəfləri seçmək fürsətini itiriblər. Hadisələr o qədər sürətlə inkişaf edir ki, kimin doğru, kimin yanlış olduğunu ayırd etmək imkanı da demək olar ki, yoxdur.

Bu niyə indi baş verir? Niyə Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı bu qədər inkişaf etməkdə olan ölkələrin Qərblə əlaqəsini kəsməyə və qurban və təcavüzkar arasında neytrallıq mövqeyində israr etməsinə səbəb oldu, halbuki diplomatlar və elm adamları "yeni Qoşulmama Hərəkatı"ndan danışırlar? Qərbin Rusiyaya qarşı sanksiyaları gücləndirməsi və onun BMT-dəki davranışını pisləməsi ilə Qlobal Cənub - Hindistan və Cənubi Afrika kimi ölkələr Rusiyanı pisləyən səsvermədə bitərəf qaldılar. Rusiyanın BMT-nin İnsan Haqları Şurasından çıxarılmasına dair səsvermədə 58 ölkə bitərəf qaldı. Onların hamısı sanksiyalara qoşulmaqdan imtina edərək, Rusiya ilə ticarətini davam etdirməklə ümumilikdə qarşı tərəfi - Qərbi xeyli zəiflətdi.

İnkişaf etməkdə olan dünyanın bütün ölkələrinin əsas tutduğu bir prinsip varsa, o da sərhədlərin toxunulmazlığı və dövlət suverenliyidir. Bununla belə, keçmiş Çili diplomatı, hazırda Boston Universitetində dərs deyən Xorxe Heynin bu yaxınlarda çıxışındakı, "Ukraynada əsl parçalanma demokratiya və avtokratiya arasında deyil, Qlobal Şimal və Qlobal Cənub arasındadır" fikirləri bir qədər mübaliğədir. Bu heyrətləndirici fikirdir və ABŞ prezidenti Co Baydenin dünya nizamını demokratiyalar və avtokratiyalar arasında rəqabət ətrafında yenidən formalaşdırmaq siyasəti fikirlərinə ziddir.

Latın Amerikası, Afrika və Cənub-Şərqi Asiyanın keçmiş diplomatları və alimləri ilə söhbət etdikdən və "yeni Qoşulmama Hərəkatı" ilə bağlı yazılanları oxuyandan sonra aydın oldu ki, Qərbin Ukrayna ilə bağlı addımları belə bir təxribata səbəb olmayıb. Mövcud qarşıdurmaya səbəb olan soyuq müharibə zehniyyətidir. İnkişaf etməkdə olan dünyanın aparıcı ölkələri nəinki yeni "Soyuq Müharibə"də tərəf seçmək istəmirlər, daha da əsası, bunu zəruri hesab etmirlər.

Qoşulmama Hərəkatı ilk dəfə 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində bugünkündən daha kəskin ideoloji məqamda toplaşıb. Bu hərəkatı hindistanlı Cavaharlal Nehru və qanalı Kvame Nkrumah kimi aparıcı fiqurlar yaradanda bloklara qoşulmamaqda əsas məqsədin təkcə Vaşinqtonala Moskva arasında seçim etmək yox, həm də kapitalizm və kommunizm düşərgəsi arasında sosialist inkişaf yolunu seçmək idi. Bu ideya həm də keçmiş müstəmləkələrin Qərb dövlətlərinin müstəmləkə diktələrindən tamamilə xilas olmaq üçün millətçi istəklərini təmin edirdi.

Amma bu, Qoşulmama Hərəkatını uğursuz edən ideologiya idi. Çünki onun 1970-80-ci illərdə "yeni beynəlxalq iqtisadi nizam" və "yeni beynəlxalq informasiya nizamı" tələbləri Marqaret Tetçer və Ronald Reyqan dövründə Qərbi inandırmışdı ki, o zamanlar Üçüncü Dünya adlanan dövlətlərin təsiri altındadırlar. Kuba və digər radikal dövlətlərə qarşı ya müqavimət göstərilməli, ya da sadəcə gözardı edilməli idi. Sosialist yolu tezliklə, hətta inkişaf etməkdə olan dünyanın əksər hissəsi tərəfindən dalana dirəniş kimi qəbul edildi.

Həmin köhnə ideologiya bu gün də tam ortadan qalxmayıb. On il əvvəl, Hindistanda bir qrup aparıcı siyasi araşdırmaçı "Qoşulmama Hərəkatı 2.0" adlı Ağ Kitab nəşr etdilər. Onlar düşünürdülər ki, inkişaf edən, çoxmillətli Hindistan kimi bəşəriyyətin gələcək imkanları planetin digər yerlərində də reallaşdıra bilərlər. Hindistan bu gün də çoxmillətli ölkə kimi bloklara qoşulmayan nəzəriyyənin mənbəyi olaraq qalır. 2020-ci ildə Hindistanın Xarici İşlər Naziri S.Caishankar "Hindistan yolu" kitabını nəşr etdi və burada açıq şəkildə Hindistanın öz maraqlarını həyata keçirməli olduğunu qeyd etdi.

İraqdakı müharibə, ölkələrin inkişafına yardımın kəsilməsi, birtərəfli ticarət müqavilələrinin bağlanmasında Qərbin günahları danılmazdır. Qoşulmama Hərəkatında yeni hesablamaları formalaşdırarkən belə qənaətə gəlmək olar ki, Ukraynada baş verənlər təkcə Rusiyanın ərazi əldə etmək iddiası deyil, Çinin yüksəlişindən doğan bir hesablaşmadır. Son "Soyuq Müharibə" zamanı Qərbin tərəfində olmaq ticarət və yardım baxımından fayda gətirdiyi halda, indi bu faydalar tamam başqa istiqamətdə axır. "Bayden rəsmiləri Latın Amerikasına gələndə dedilər ki, "Çindən ehtiyatlı olun". Çinli məmurlar isə Latın Amerikasına gələndə körpülər, tunellər və dəmir yolları haqqında danışırlar. Belə olduğu halda Çindən niyə qorxmaq lazımdır?".

Maraqlıdır, Bayden administrasiyasının diplomatları həqiqətən də öz tərəfdaşlarına keçmiş prezident Donald Trampın komandası kimi Çinə qarşı eyni sərt tələbləri irəli sürürlərmi? ABŞ dövlət katibi Entoni Blinken son çıxışında vurğulayıb ki, Vaşinqton "Çinin böyük güc rolunu oynamasına mane olmaq istəmir" və ya ölkələri iki super güc arasında seçim etməyə məcbur etmir.

Blinkenin sözlərinə görə, Bayden administrasiyası sadəcə olaraq Üçüncü Dünya ölkələrinə "seçim" vermək istəyir. Bəs onda niyə Qərb inkişaf etməkdə olan ölkələrə COVID-19 ilə mübarizədə kömək etmək üçün praktiki olaraq heç nə etmədi və hətta onlara vaksinlərin tədarükünü əngəllədi? Nə üçün bu ölkələrə iqlim dəyişikliyinə uyğunlaşmaq üçün əhəmiyyətli maliyyə ayıra bilməyib? Çin inkişaf etməkdə olan ölkələrə "Kəmər və Yol" təşəbbüsünün bir hissəsi olaraq infrastruktura on milyardlarla dollar ayırıb. Baş ofisi Pekində yerləşən Asiya İnfrastruktur İnvestisiya Bankının hazırda 105 üzvü və yüz milyard dollar kapitalı var. Qərb isə gecikmiş olsa da keçən həftə 600 milyard dollarlıq qlobal infrastruktur fondu elan etdi.

Çin Qoşulmama Hərəkatının üzvü olmasa da, çoxdan dost və sponsordur. İndi Çin Qoşulmama Hərəkatının canlanmasını fəal şəkildə təşviq edir. Çinin Taihe İnstitutunun analitik mərkəzinin ingilisdilli nəşri olan "TI Observer"-in budəfəki buraxılışı "Qoşulmama Hərəkatı 2.0"a həsr olunub. Məqalələr arasında "Argentinanın "Üçüncü Yolu" və Rusiyanın Ukraynada Xüsusi Əməliyyatı", eləcə də Qoşulmama Hərəkatının yüksəlişinə çağıran bir neçə çinli müəllifin məqaləsi dərc olunub.

Qoşulmama Hərəkatının yeni doktrinası belə bir fikrə əsaslanır ki, Çindən güclü geosiyasi oyunçu kimi qorxan və Qərb ittifaqlarının "çətiri" altında təhlükəsizlik axtarışını davam etdirən bir çox dövlətlər onu əvəzolunmaz iqtisadi tərəfdaş hesab edirlər. Qlobal Cənub Çinə birmənalı dəstək verməyəcək. Çinin Rusiyaya fəal dəstəyi Rusiyanın Ukraynadakı xüsusi əməliyyatından qorxan inkişaf etməkdə olan ölkələri sevindirmədi. BMT-nin 193 üzvündən 141-i onu pisləmək üçün səs verib. BMT-də Rusiyanın İnsan Hüquqları Şurasından çıxarılmasına səsvermə 93 lehinə, 24 əleyhinə səslə başa çatdı.

Sinqapur Milli Universitetinin xarici siyasət üzrə alimi Kanti Bajpainin dediyi kimi, Baydenin ən vacib dərsi o olmalıdır ki, "demokratiya və avtokratiya arasında fərq Qlobal Cənubda çox da bəyənilmir". Baydən Kuba, Nikaraqua və Venesuela kimi avtokratiyaları keçən ay Los-Ancelesdə Amerika Sammitinə dəvət etməkdən imtina edəndə artıq ayrımçı olduğunu bird aha təsdiq etmişdi. Sammitə 35 dövlət başçısından yalnız 23-ü qatılmışdı. İştirak etməyənlər arasında Meksika, Şimal üçbucağına daxil olan ölkələr və bir sıra Karib hövzəsi ölkələrinin prezidentləri də var idi. Braziliya prezidenti Jair Bolsonaro son anda fikrini dəyişdi və sammitə qatıldı. Bayden Sammitdəki çıxışında vurğulamışdı ki, "demokratiya təkcə Amerika tarixinin müəyyənedici xüsusiyyəti deyil, həm də Amerikanın gələcəyinin vacib hissəsidir".

Rusiya xüsusi əməliyyatı başlayandan sonra Qərbin buna etirazı və etirazçılar koalisiyası yaratmasında özünəməxsus şəkildə haqlı ola bilər. Amma özünü bu nizamın faydalanan yox, qurbanı hesab edən ölkələrin də bu fikri bölüşəcəyini gözləmək qətiyyən mümkün deyil. Bəlkə də belə etməli idilər. Amma əminliklə demək olar ki, bu ölkələr yoxdur. Hindistanın keçmiş milli təhlükəsizlik müşaviri Şivşankar Menonun bu yaxınlarda "Foreign Policy" jurnalında yazdığı kimi, "Mövcud dünya nizamı inkişaf etməkdə olan ölkələrin təhlükəsizlik ehtiyaclarına, onların ərzaq təhlükəsizliyi və maliyyə yardımı ilə bağlı mövcud narahatlıqlarına və transmilli problemlərin həlli ilə bağlı çətinliklərə cavab vermir.

Əgər Qərb demokratiyası həmrəylik çağırışları ilə Qlobal Şərqin sədaqətini qazana bilməsə uduzacaq. Yaxın gələcəkdə Qərbin xərc maddələrində Qərb ölkələrinin yoxsul və inkişaf etməkdə olan ölkələrin rifahının təmin edilməsinə real sadiqliyini nümayiş etdirəcək heç bir xərc olmayacaq. Yaxın gələcəkdə BMT Təhlükəsizlik Şurasında qlobal qüvvələrin uyğunlaşmasını daha ədalətli əks etdirən islahat gözləmək çətin deyil. Asiya, Afrika və Latın Amerikasının yüksələn dövlətləri müdafiə üçün ABŞ və Qərbə baxsalar da, sırf iqtisadi maraqlarını həyata keçirməyə Şərqlə davam edəcəklər.

Bu arada, Rusiya BRİKS-in (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) genişləndirilməsi təşəbbüsünü dəstəkləyib. Bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova İranın bu assosiasiyaya üzv olmaq üçün müraciəti ilə bağlı sualı cavablandırarkən deyib. "BRICS bu prosesin üsulları barədə qərar verməli, prinsiplər, meyarlar, standartlar, müvafiq prosedurlar barədə razılığa gəlməli olacaq. Sonra beşlik genişlənmənin başlanması ilə bağlı ortaq məxrəcə gəlməli olacaq", - Zaxarova bildirib.

Assosiasiya inkişaf etməkdə olan ölkələr arasından potensial yeni iştirakçıları müzakirə etməyə başlaya bilər. İyunun sonunda İranın BRİKS qrupuna qoşulmaq üçün müraciət etdiyi məlum olub. Eyni zamanda İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə İranın BRİCS-ə üzvlüyünün hər iki tərəfə "əlavə faydalar" gətirəcəyinə ümid etdiyini bildirib.

Bəli, dünya kimlərinsə ucbatından təhlükəli şəkildə ikiyə bölünür. Hər iki tərəfin də öz ambisiyaları var. Kimin qələbə qazanacağından isə danışmağa dəyməz, uduzan bəşəriyyət olacaq

**V.VƏLİYEV**

# 15 gündə yol infrastrukturu ilə bağlı 3 sərəncam



**Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir". Bəli, abad yol məxsus olduğu ölkənin əsasən iqtisadi vəziyyətinin göstəricisidirsə, digər tərəfdən isə insan amilinə verilən dəyərin, bütün bunların fonunda isə mədəni cəmiyyətin, gözəl həyatın göstəricisidir.**

Əsası ulu öndərimiz tərəfindən qoyulan inkişaf strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəmizdə bütün sahələr kimi, yol infrastrukturunu da daim diqqət mərkəzində saxlayır. Bütün bunların nəticəsidir ki, ötən 18 ildə paytaxt Bakıdan bütün regionlara şaxələnən yollar beynəlxalq standartlara cavab verən səviyyədə yeniləşdirilmişdir. Müstqəillik illərində ölkəmizdə tək şəhərlər deyil, ucqar kənd yolları da yenilikdən pay almış, insanların rahatlığı, təhlükəsizliyi təmin olunmuşdur. Azərbaycan bu gün avtomobil yollarının keyfiyyətinə görə MDB ölkələri arasında birinci yerdədir.

## 3 istiqamətdə yeni yollar tikiləcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Abşeron rayonunun Bakı-Şamaxı-Yevlax (18 km)-Aşağı Güzdək avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" 4 iyul 2022-ci il, "Qazax rayonunun Qarapapaq-Çaylı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" 5 iyul 2022-ci il, "Bərdə rayonunun Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə (46 km)-Qarağacı-Mirzəcəfərli-Mollagüllər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" 8 iyul 2022-ci il tarixli sərəncamları ölkəmizdə yol infrastrukturunun müasirləşdirilməsi üçün imzalanan növbəti dəyərli rəsmi sənədlərdir. Bu sərəncamların icrası üçün 11, 4 milyon manat vəsait ayrılmışdır ki, bununla kilometrlərlə avtomobil yolu beynəlxalq standartlara uyğun, müasir şəkildə tikiləcək və vətəndaşların istifadəsinə veriləcəkdir. Həm paytaxt Bakının, həm də regionlarımızın yollarının müasirləşdirilməsini proritet məsələ kimi diqqətdə saxlayan dövlətimizin başçısı tərəfindən iyul ayının birinci yarısında avtomobil yollarının tikintisi ilə bağlı imzalamış üç sərəncamla tikilməsi nəzərdə tutulan yollar ölkəmizin çox əhəmiyyətli avtomobil yollarını əhatə edir.

İkinci Vətən Müharibəsinin bitməsindən iki ilə yaxın bir vaxt keçir. Müharibə bitəndən dərhal sonra işğaldan azad edilmiş rayonlarımızda quruculuq, bərpa işləri başlanıb. Bu gün dövlətimiz sosial-iqtisadi gücü Qarabağa istiqamətləndirib. Düşmən bu torpaqlarda daşı daş üzərində qoymayıb. 30 il yurd-yuvasından didərgin düşmüş, qaçqın, köçkün həyatı yaşayan insanların ata-baba torpaqlarına qayıtmaları üçün azad torpaqlarımız abadlaşdırılmalı, insanların orada yaşaması üçün quruculuq işləri həyata keçirilməli idi.Baxmayaraq ki, indi bütün güc işğaldan azad edilmiş torpaqlara yönəldilib, ölkəmizin paytaxtında və regionlarında tez-tez yeni obyektlərin, tikililərin, istirahət mərkəzlərinin, parkların istifadəyə verilməsi xəbərini alırıq. Bu işlərin azad olunmuş torpaqlarda aparılan böyük miqyaslı tədbirlərlə paralel aparılması isə ölkəmizin iqtisadi gücünün göstəricisidir.

## 30 il əvvəlki, 30 il sonrakı yollar

Belə bir deyim var: görünən kəndə nə bələdçi? Bu deyimlə yola çıxıb onu yollara da şamil etməklə deyə bilərik ki, görünən yol özü haqqında özü məlumat verir, ona bələdçi lazım deyil.

Yəqin ki, ölkəmizin 30 il əvvəlki, yəni müstəqilliyimizdən öncəki yollarını xatırlayanlar olar. Şəhərli-kəndli avtomobil, kəndarası yolların miskinliyi insanların rahatlığını əllərindən almışdı. Bundan kənd yerlərində yaşayanlar daha çox əziyyət çəkirdilər. Şəhərlərə gedən yollara yenə də kəndlərlə müqayisədə bir qədər yaxşı demək olardı. Lakin rayonlararası, kəndlərarası yollar demək olar ki, bərbad vəziyyətdə idi. Onların abadlaşdırılması haqqında isə düşünən yox idi.İnsanlar yarım saatlıq yolu saat yarıma qət etməli olurdular. Kəndlərdən rayon, şəhər mərkəzlərinə getmək bu qədər vaxta başa gəlirdi. Bu da əhalinin vaxt itkisinə səbəb olurdu. Həmin ərazilərdə yaşayan sakinlərin bir gün vaxtını alırdı. Hələ xəstə insanların xəstəxanalara çatdırılması daha çətin idi. Dəfələrə şahidi olmuşuq ki, yolların bərbadlığı üzündən insanlar həyatla vidalaşıblar. Onları vaxtında xəstəxanaya çatdırmaq mümkün olmurdu.

Statistikaya nəzər yetirsək, o illərdə yol qəzalarının miqyası ilə də tanış olmaq bilərik. Payız-qış aylarında yağışlı-qarlı bərbad yollar daha təhlükəli olurdu. Bu səbəbdən də yol qəzaları tez-tez baş verirdi.

Kəndiçi yolların vəziyyəti isə daha dözülməz idi. Elə ki yaz, payız fəsli oldu, yağışlar yağmağa başladı, palçıqlı yollar insanları əldən salırdı. Bu yollarla iş yerinə, mağazaya, baxçaya, məktəbə yollanmaq böyük çətinlik yaradırdı. Hələ uşaqların vəziyyəti daha dözülməz idi. Çünki onların gücü çatmırdı ki, palçıq tutmuş ayaqlarını qaldırıb addım atsınlar. Evlərindən müəyyən qədər məsafədə yerləşən məktəblərə uşaqlar belə çətinliklə gedib-gəlirdilər. İşıqlandırılması olmayan belə yollarda gecələr hərəkət etmək həm təhlükəli, həm də çətin idi. Bu səbəbdən də insanlar işlərini elə planlaşdırırdılar ki, axşam toran vaxtından sonra küçəyə çıxmasınlar.

Bir rayondan digər rayona, bir kənddən digər kəndə uzanan yollar da bərbadlıqda heç də kəndiçi yollardan geri qalmırdı. Bərbad yollar həm bir neçə saat çox vaxt sərfinə, həm də yolçuların yorğunluğuna səbəb olurdu.

Müstəqilliyimiz əldə olunandan sonra tənəzzülə uğramış iqtisadiyyatımız dirçəldikcə bütün sahələr kimi, yol infrastrukturu da ildən-ilə yenilənməyə başladı. Planlı şəkildə həyata keçirilən yol tikintisi bu gün müasirliyi ilə göz oxşayır. Həinki şəhərlərimizə, ucqar kəndlərimizə belə hamar, asfaltlı yollar uzanır. Bu yollar insanların vaxt itkisini də aradan qaldırıb. Onlar istədikləri yerə rahat şəkildə gedib-gələ bilirlər. Bəzən qış aylarında kəndlərimizdə olarkən uşaqların məktəbə gediş-gəlişini gördükcə o illərin əziyyətlərini yada salır və bugünkü inkişafımızla, dövlətimizin vətəndaşına münasibəti ilə qürur duyuruq. Bu gün paytaxt Bakıdan hansı regiona üz tutursan tut, səni mənzil başına abad yollar aparır. Bu yollarda nə vaxt itirirsən, nə də ki yorulursan. Çünki bu yollar müstəqillik illərində bir neçə dəfə təmir olunub, indi isə beynəlxalq standartlara uyğunlaşdırılır.

## "Zəfər yolu"- 30 ilin yolu

Bu yolu biz qətrə-qətrə düşməndən azad etdik, metr-metr abadlaşdırdıq. Bu yol 30 il idi ki, düşüncələrimizdə xəyali bir yol idi, sonda gerçəyə çevrildi. Biz 30 il idi ki, Qarabağa, işğal olunmuş rayonlarımıza gedən yollardan xəbərsiz idik. 30 il idi ki, bizi o torpaqlara aparan yollar yağı tapdağı altında idi. Ölkəmizin sürətlə inkişaf edən iqtisadiyyatı, dövlətimizin başçısının düşünülmüş siyasəti nəticəsində 2020-ci ilin payızında cəmi 44 gündə İkinci Vətən Müharibəsi ilə torpaqlarımızı düşməndən geri aldıq. İtkilərimiz oldu, sağlamlıqlarını itirən qazilərimiz oldu. Lakin biz şərəfimizi qoruduq, canımız bahasına torpaqlarımızı geri aldıq.

Müharibə bitən kimi dərhal torpaqlarımızda quruculuq işlərinə başlanıldı. Bu gün Qarabağda miqyasına görə dünyaya səs salan işlər həyata keçirilir. Yol infrastrukturu isə azad torpaqlarımızda başlanan ilk iş oldu. Çünki abadlığa, inkişafa aparan yol bu yollardan keçməli idi. Ötən illərin ən gözəl, bənzərsiz yolu çəkildi Şuşaya- "Zəfər yolu". Bu yol Qarabağın baş tacı olan Şuşaya 30 ilin hicranının üstündən çəkilən vüsal yolu oldu. Zəfərimizin, qələbəmizin, şərəfimizin yolu oldu. Bu yol Hacıqabul-Horadiz, Ağbənd-Zəngəzur magistral avtomobil yolunun 149-cu kilometrliyindəki Əhmədbəyli kəndində başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndindən, Çaxmaq meşəsi və Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır. Yolun layihə uzunluğu 101,9 kilometrdir. İki hərəkət zolağından ibarət olan yol 2021-ci il oktyabrın axırlarında istifadəyə verilib.

Şuşaya digər avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci kilometrliyindən başlayır. Uzunluğu 81,6 kilometrdir, dörd-altı hərəkət zolağı var. Yol üzərində körpü və tunellər çəkilməsi nəticəsində yüksək sürət təmin olunacaq və "Zəfər yolu" ilə müqayisədə 20,3 kilometr qısa olacaq. Avtomobil yolunun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulub.Bu gün Laçına, Kəlbəcərə, Zəngilana, Cəbrayıla, Füzuliyə, Ağdama, işğaldan azad edilmiş rayonlarımızın hər birinə yollar çəkilir. Çəkilir ki, bu yollar Böyük Qayıdışa şahid olsun.

## Yol turizmdir

Azərbaycan özünün coğrafi mövqeyinə görə beynəlxalq aləmdə xüsusi əhəmiyyət daşıyır. Ona görə ki, ölkəmiz Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm nəqliyyat qovşağında yerləşir. Buna görə də müxtəlif səbəblərdən ölkəmizə gələn insanlar buradakı turizm imkanlarından da növbəti səfərlərində yararlanmaq istəyirlər. Yol isə həm də turizmdir, turizmin var olmasının, inkişafının, perspektivinin əsasıdır. Ölkəmiz hər il minlərlə turistin üz tutduğu ünvanlardan olduğu, həm də turizmə hər fəsil qoyun açdığı üçün illərdir ki, turistik bölgələrimizə gedən yollar abadlaşdırılır. Bu gün Şəkiyə, Şamaxıya, Qubaya, Qəbələyə və digər rayon və şəhərlərə abad yollar uzanır.

Biz insanlar belə bir psixologiyaya malikik ki, ən gözəl yerə abad yolla getmiriksə, bir daha səyahət üçün gözəlliyinə, səfalılığına baxmayaraq oranı seçmirik. Abad yolu olan başqa yerlər axtarırıq. Deməli, yol həm də turizmin özüdür. Turizm, ilk növbədə, yoldan başlanır, desək daha yerinə düşmüş olar. Turizm üçün məkan, hava, ətrafdakı istirahət mərkəzləri, xidmət sahələri nə qədər əhəmiyyətlidirsə, yol bütün bunlardan dəfələrlə əhəmiyyətlidir. Çünki biz rahatlıq tapa biləcəyimiz, istirahət edəcəyimiz yerlərə həmin yollarla gedirik. Və o yollar bizdə ilkin təəssüratları yaradır. O təəssüratlarla da gedəcəyimiz yerə növbəti dəfə də üz tuta və yaxud oradan birdəfəlik imtina edə bilərik. Ölkə başçısının sərəncamları ilə 3 istiqamətdə tikiləcək yeni avtomobil yolları da gələcəkdə turizmin inkişafına töhfələr verəcəkdir. Çünki bu yollar da Vətənimizin dilbər guşələrinə aparan yollardır. Yaxın gələcəkdə bu yerlərin sakinləri kimi, qonaqları da yolların abadlığına, gözəlliyinə heyranlıqla baxacaqlar.

## Yol mədəniyyət, həm də həyatdır

Mədəniyyətdir, ona görə ki, yol mənzil başından xəbər verir. Mənzilbaşı isə ölkələrdir. Yollar ölkənin iqtisadiyyatını ortaya qoyur. İnkişafından, tərəqqisindən söhbət açır. Yol ölkələrin rəhbərlərinin insan amilinə dəyərindən danışır

Yol mədəniyyətdir, əgər abaddırsa. Yol mədəniyyətdir, əgər müasirdirsə O yolda ki, təhlükə yoxdur, deməli, mənsub olduğu ölkədə böyük mədəniyyət vardır. Çünki insan amilinə dəyər verilir. Onların rahatlığı, təhlükəsizliyi diqqətdə saxlanılır. Avtomobil ötdükcə toz-duman qalxırsa, çala-çökəklərin üzərindən keçdikcə içəridə əyləşən insanlar narahat olursa, yol yol deyil, mədəni səviyyə isə yerində deyil, deməkdir.

Yol bir də həyatdır. Bəli, həyatdır. Evimizdən iş yerimizə, mağazaya, marketə, parka, metroya, məktəbə və sair yerlərə qədər məsafədən tutmuş dünyanın üz tutacağımız bütün ölkələrinədək yol həyatdır. Çünki bu həyatın içərisində biz insanlar varıq. Bizim rahatlığımız bir metrdən kilometrlərədək uzanır. Biz bir metrdə də, min kilometrdə də rahat, təhlükəsiz olmalıyıq. Buna haqqımız var, çünki insanıq. Həyatda rahatlıq, firavanlıq şəraitində yaşamaq da haqqımızdır.Yol həyatdır. Təhlükəsizdirsə, bəli, həyatdır. Çünki evimizdən çıxıb hansısa yola üz tuturuqsa, o yol evə dönəcəyimizə təminat olmalıdır. Nə xoş bizə ki, Azərbaycan kimi ölkənin vətəndaşlarıyıq. Burada insan amilinə o qədər dəyər verilir ki, müharibədən cəmi 2 ilə yaxın çıxmış ölkədə budur, yeni yollar çəkilir. Həm də Qarabağda gedən quruculuq işləri ilə paralel şəkildə. Deməli, dövlətimizin siyasətində insan amili ən vacib prioritetdir. 15 gün ərzində yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlı imzalanan 3 sərəncam buna bariz nümunədir.

***Mətanət MƏMMƏDOVA***

# Qida zəhərlənmələri nədən baş verir?



**Qida zəhərlənməsi müxtəlif orqanizmlər və ya toksinlərlə çirklənmiş qidaların qəbulu və həzm sisteminə daxil olması nəticəsində yaranan xəstəliyə verilən addır. Bakteriyalar, viruslar və parazitlər də daxil olmaqla yoluxucu orqanizmlər və onların toksinləri qida zəhərlənməsinin ən çox yayılmış səbəbləri sırasındadır.**

Yoluxucu orqanizmlər və ya onların toksinləri emal və ya istehsal zamanı istənilən nöqtədə qidanı çirkləndirə bilər. Qidanın düzgün saxlanmaması, hazırlanması, istifadə edilməsi və ya düzgün bişirilməməsi halında evdə də çirklənmə baş verə bilər.

Çirklənmiş qidaları yedikdən sonra bir neçə saat ərzində başlaya bilən qida zəhərlənməsinin simptomlarına tez-tez ürəkbulanma, qusma və ya ishal daxildir.



Qida zəhərlənməsi əksər hallarda yüngül formada olur və müalicə olunmadan keçir. Ancaq bəzi hallarda tibbi yardım üçün xəstəxanaya getmək lazım ola bilər.

Çirklənmə qidanın yetişdirilməsi, yığılması, emalı, saxlanması, daşınması və ya hazırlanması kimi qida hazırlanması prosesinin istənilən nöqtəsində baş verə bilər.

Qida zəhərlənməsi çox vaxt çarpaz çirklənmə, zərərli orqanizmlərin bir səthdən digər səthə keçməsi nəticəsində baş verir. Bu, xüsusilə salatlar və ya digər məhsullar kimi xam, yeməyə hazır qidalar üçün ümumi problemdir. Belə yeməklər ayrıca bişirilmədiyi üçün zərərli orqanizmlər yeməkdən əvvəl m ə h v edilmir və qida zəhərlənməsinə səbəb ola bilər.

”Campylobacter” simptomlarını 2-5 gün ərzində göstərir. Ət və quş əti vasitəsilə yayıla bilər. Heyvan nəcisi ət səthləri ilə təmasda olarsa, emal zamanı çirklənmə baş verir. Digər mənbələrə pasterizə olunmamış süd və çirklənmiş su daxildir.

”Clostridium botulinum” simptomlarını 12-72 saat ərzində göstərir. Az turşu, konservləşdirilmiş ticarət qidaları, hisə verilmiş və ya duzlu balıqlar və çox uzun müddət isti saxlanılan digər qidalar vasitəsilə yayıla bilər. ”Clostridium perfringens” simptomlarını 8-16 saat ərzində göstərir.



”Escherichia coli” simptomlarını 1-8 gün ərzində göstərir. Kəsim zamanı nəcislə çirklənmiş mal əti vasitəsilə yayıla bilər. Əsasən az bişmiş mal əti ilə yayılır.

Giardia lamblia simptomlarını 1-2 həftə ərzində göstərir. Çiy, yeməyə hazır məhsullar və çirklənmiş su vasitəsilə yayıla bilər.

Hepatit A 28 gün ərzində özünü göstərir. Çiy, yeməyə hazır məhsullar və çirklənmiş sudan olan qabıqlar vasitəsilə yayıla bilər.

Listeria simptomlarını 9-48 saat ərzində göstərir. Hot-doqlar, delikates məhsulları, pasterizə olunmamış süd, pendirlər və yuyulmamış xam məhsullar vasitəsilə yayıla bilər. Çirklənmiş torpaq və su ilə yayıla bilər.

Noroviruslar 12-48 saat ərzində öz simptomlarını göstərir. Çirklənmiş su, xam, yeməyə hazır məhsullar və qabıqlı balıqlar vasitəsilə yayıla bilər.

Rotavirus 1-3 gün ərzində özünü göstərir. Çiy və ya hazır məhsullar vasitəsilə yayıla bilər.

Salmonella 1-3 gün ərzində özünü göstərir. Çiy və ya çirklənmiş ət, quş əti, süd və ya yumurta sarısı vasitəsilə yayıla bilər. Qeyri-kafi bişirilmənin təsirindən qaça bilər, ona görə də yeməkləri hazırlayarkən az bişməkdən çəkinmək lazımdır. O, həmçinin gigiyenik olmayan bıçaqlar, kəsici səthlər kimi qablar və ya yoluxmuş qida vasitəsi ilə də yayıla bilər.

Şigella simptomlarını 24-48 saat ərzində göstərir. Dəniz məhsulları və xam, yeməyə hazır məhsullar vasitəsilə yayıla bilər.

”Staphylococcus aureus” simptomlarını 1-6 saat ərzində göstərir. Ətlərin və hazırlanmış salatların, qaymaqlı sousların və kremlə doldurulmuş xəmirlərin üzərinə yayıla bilər. Əl ilə təmas, öskürək və asqırma yolu ilə də yayıla bilər.



”Vibrio Vulnificus” simptomlarını 1-7 gün ərzində göstərir.

Çirklənmiş qidaları qəbul etdikdən sonra insanın zəhərlənib-zəhərlənmədiyini müəyyən edən amillərə çirkləndirici orqanizmin növü, məruz qalma miqdarı, fərdin yaşı və ümumi sağlamlıq daxildir.

Hamiləlik dövründə maddələr mübadiləsi və qan dövranında baş verən dəyişikliklər qida zəhərlənməsi riskini artıra bilər. Hamiləlik dövründə fərdin immun sisteminin reaksiyası daha şiddətli ola bilər. Nadir hallarda xəstəlik dölə də təsir edə bilər.

Şəkərli diabet, qaraciyər xəstəliyi və ya QİÇS kimi xroniki vəziyyəti olan və ya xərçəng üçün kemoterapi və ya radiasiya terapiyası keçirən şəxslərin immun reaksiyası yavaşlaya bilər.

Qida zəhərlənməsi zamanı ən çox rast gəlinən ciddi fəsad susuzlaşma, yəni suyun, mineralların və duzların itirilməsidir. Sağlam insanlar qusma və ishal nəticəsində itirdiklərini doldurmaq üçün kifayət qədər maye qəbul edərlərsə, susuzlaşma problem yaratmaz.

## Qida zəhərlənməsinin qarşısını necə almaq olar?

Evdə qida zəhərlənməsinin qarşısını almaq üçün ev sakinləri əllərini, qab-qacaq və yemək hazırlayan səthləri tez-tez yumalıdır.

Yeməkləri tutmazdan və ya hazırlamazdan əvvəl əlləri ən azı iyirmi saniyə sabunlu su ilə yumaq vacibdir. İsti, sabunlu su qabları, kəsmə taxtalarını və digər yemək hazırlayan səthləri yumaq üçün kifayət edəcək.

Çiy qidalar hazır qidadan ayrı saxlanılmalıdır. Alış-veriş edərkən, yemək hazırlayarkən və ya saxlayarkən çiy ət, quş əti, balıq və qabıqlı balıqları digər qida növlərindən uzaq saxlamaq çarpaz çirklənmənin qarşısını ala bilər.

Normal temperaturda yeməyi tam bişirmək vacibdir.

Bunun baş verməsinə nəzarət etməyin ən yaxşı yolu qida termometrindən istifadə etmək ola bilər.

Yeməkləri lazımi temperaturda bişirməklə əksər qidalarda olan zərərli orqanizmləri məhv etmək və onları zərərsizləşdirmək mümkündür. Mal ətinin daxili temperaturu ən azı 71,1 C-ə yüksələnə qədər; Daxili temperatur ən azı 62,8 °C-ə qalxana qədər quzu və dana əti kimi biftek və kotlet məhsulları, toyuq və hinduşka kimi quş ətlərini minimum 73,9 °C daxili temperaturda bişirmək vacibdir. Balıq və dəniz məhsullarının hərtərəfli bişdiyinə əmin olun.

Tez xarab olan qidaları aldıqdan və ya hazırlandıqdan sonra iki saat ərzində dərhal soyuducuda saxlamaq və ya dondurmaq lazımdır. Qida ilə birlikdə otaq temperaturu 32,2°C-dən yuxarı olarsa, tez xarab olan qidaları bir saat ərzində soyuducuda saxlamaq lazımdır.

Dondurulmuş qidaları otaq temperaturunda əritmək olmaz. Dondurulmuş qidaları əritməyin ən təhlükəsiz yolu onu soyuducuda əritməkdir. Mikrodalğalı sobanın "defrost" və ya 50% güc parametrindən istifadə edərək dondurulmuş qida əridilməlidirsə, o, dərhal bişirilməlidir.

Bir yeməyin təhlükəsiz şəkildə hazırlanması, təqdim edilməsi və ya saxlanması təmin edilmirsə, istehlak edilməməli və atılmalıdır. Otaq temperaturunda çox uzun müddət qalan yeməklər bişirməklə məhv edilə bilməyən bakteriya və ya toksinləri ehtiva edə bilər.

Qida zəhərlənməsi xüsusilə gənc uşaqlar, hamilə qadınlar və onların döllə-



ri, yaşlılar və immun sistemi zəif olan insanlar üçün ciddi və potensial həyati təhlükəsi olan nəticələrə səbəb ola bilər. Bu şəxslər aşağıdakı qidalardan istifadə etməli və ya əlavə ehtiyat tədbirləri görməlidirlər:

- Feta və pasterizə olunmamış pendir növləri kimi yumşaq pendirlər
- Çiy və ya az bişmiş istiridyə və midyə kimi qabıqlı balıqlar və ya dəniz məhsulları
- Çiy və ya az bişmiş qırmızı və ya ağ ət
- Tərkibində çiy və ya az bişmiş yumurta olan xəmirlər
- Evdə hazırlanmış dondurma
- Lobya cücərtiləri və ya kələm kimi xam cücərtilər
- Pasterizə olunmamış şirələr
- Pasterizə olunmamış süd və süd məhsulları

**AİB sədri Eyyub Hüseynov:** "Azərbaycan Respublikasında Qida Təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2021-ci illər üçün dövlət proqramının ikinci bölməsində Qida Təhlükəsizliyi sahəsində qlobal meyillər bölməsində qeyd olunur ki, ÜST-ün verdiyi məlumata görə dünyada hər il 600 milyon insan yeni, dünya əhalisinin hər 10 nəfərindən biri qida məhsullarından zəhərlənir. Hər il qida məhsullarından zəhərlənənlərin 420 min nəfəri ölür ki, bunun da 124 mini və ya 30 faizi 5 yaşınadək uşaqlardır.



Mən bu rəqəm əsasında Azərbaycan əhalisi ilə bağlı tənasüb düzəltmişəm və məlum olub ki, ümumdünya göstəricisinə uyğun olaraq ildə 420 nəfər adam qida zəhərlənməsindən dünyasını dəyişməlidir. Əlbəttə biz bunu istəmirik. Lakin statistika belə göstərir.

Mən, 26 ildir istehlakçı hüquqlarını qoruyuram və hələ AQTA yaranmazdan öncə görmüşəm ki, Səhiyyə Nazirliyinin verdiyi məlumatlarda bir ildə 2-3 nəfərdən artıq göstərilib və o da birmənalı şəkildə istehlakçının öz günahından olub. Hələ mən 26 ildə görməmişəm ki, Azərbaycan həkimi kimi qidadan zəhərlənmənin səbəbini bir sənaye üsulu ilə hazırlanan malda görsün və Azərbaycan həkiminin əlini kəssən də bu cür mal haqqında bir sənəd verməz ki, hansısa sənaye üsulu ilə hazırlanmış maldan insan zəhərlənibdir. Bunun da səbəbi o idi ki, AQTA-dan qabaq insanların sağlamlığı keşiyində duran orqanla sertifikat verən orqan bir əldə birləşmişdir. Yəni, sənaye üsulu ilə bir maldan insan zəhərlənsəydi, gətirib həmin o dövlət orqanının verdiyi sertifikatı masanın üstünə qoyardı və maraqlar konflikti var idi. Ona görə ciddi cəhdlə gizlədilirdi.

Təəssüflər olsun ki, AQTA yarananda yenə də sertifikat verən orqanla qidanın təhlükəsizliyinə nəzarət edən orqan bir əldə birləşdi. Dəfələrlə məsələ qaldırmışıq ki, bu orqanlar bir-birindən mütləq ayrılmalıdır ki, bir-birinə aponentlik etsin. Sertifikat verən orqan cavabdehlik daşımalıdır. Biz yenə də görürük ki, AQTA yaranandan bəri ildə zəhərlənmələrin sayı 4-5 nəfərdən artıq göstərilmir. Yenə də günahkar istehlakçının özüdür. Hələ mən görməmişəm ki, istehlakçının zəhərlənmədən dünyasını dəyişəndən sonra onun ailəsinə və ya əlil qalana kompensasiya verilsin. Ona görə biz təklif veririk ki, mütləq sertifikat verən orqan müstəqil olmalıdır və o qidanın təhlükəsizliyinə cavabdehlik daşımalıdır.



Təəssüflər olsun ki, AQTA-nın əsasnaməsində yalnız qidanın təhlükəsizliyinin təmin olunması məsələsi qalıb. Ona görə təəssüf edirəm ki, keyfiyyət məsələsi masanın üstündə qalıbdır. Yəni, Azərbaycan vətəndaşları tədrici zəhərlənmələrin qurbanıdırlar. Çünki keyfiyyətsiz qida tədricən insanları zəhərləyir. AQTA isə deyir ki, "biz elə edəcəyik ki, sizin əlinizdə tikəniz zəhərlənib ölməyəcəksiniz qorxmayın". Bu yaxşıdır, zəruridir, lakin kafi deyil. Keyfiyyətsiz qida tədricən insanları zəhərləyə bilər.

Zəhərlənmələr yenə də gizlədilir. Çox az adamın bildiyi bir informasiyadır. 19 may 2021-ci ildə ölkənin çox-çox əhəmiyyətli, yüksək səviyyəli bir mərkəzində 20-yə qədər gənc zəhərləndi. Bu informasiya tam cəmiyyətdən gizlədildi. Hər il AİB-də olan bir primitiv cihazla mən kənd təsərrüfatı məhsullarının tərkibində nitritlərin miqdarını ölçürəm. Neçə illərdir ki, qarpız, yemiş və bir çox kənd təsərrüfatı məhsullarında nitratların miqdarının normadan artıq olduğunu görürəm. Təəssüflər olsun ki, AQTA bütün meyvə-tərəvəz satışı yerlərini xüsusi bir cihazla təmin etmir ki, orada bir yoxlama olsun, bəzi mallar gəlib götürülməsin

Kəndli torpağını nitratlarla zənginləşdirəndə, zərərvericilərlə mübarizə aparanda gərək Kənd Təsərrüfatı Nazirliyinin adamları onların yanında olsun. Çox təəssüf ki, bu məsələlər yoxdur.

Biz bu vəziyyətlə qətiyyən razı ola bilmərik. Ona görə də zəhərlənmələr ciddi cəhdlə gizlədilməklə bərabər bu proses gedir. Bu səbəbdən insanlar çox diqqətli olmalı, qidanın saxlanma qaydaları, buraxılma tarixi, son yararlılıq müddəti mümkün olan məsələlərə baxmalıdırlar. Qidaların soyuducuda saxlanma qaydalarına əməl etməlidirlər. Məsəl üçün qarpızlarda nitratların miqdarı illər boyu azalmır. Ona görə mən məsləhət görürəm ki, qarpızları indi hal-hazırda mövsümdür, çox yeməsinlər.

Ümumiyyətlə, 1 kiloqramdan artıq qarpız yemək məsləhət görülmür. Çünki müəyyən zəhərlənmə dozasına çata və insanlar ölə bilər. Təklif edirəm ki, bütün kənd təsərrüfatı məhsulları satılan yerlərdə xüsusi nitrat testerlər tətbiq olunsun. Orada alıcı da onu edə bilsin və satıcılar da malları yoxlayıb götürsünlər. Bu çox ciddi problemlərdən biridir. İnsanlar bilsinlər ki, Azərbaycanda nitratsız qarpız və yaxud nitratı az olan qarpız 4-5 kiloqramdan artıq olmur. Kəsəndə al-qırmızı rəngdə olur və içərisində ağ zoğlar olmur. Lakin nitratlı qarpız böyük olur, kəsəndə çəhrayı rəngdə olur, içərisində ağ zoğlar olur və nitratı az olan qarpızdan daha şirin olur. Bu cür qarpızlar təhlükəlidir".

**Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev:** "Qida zəhərlənmələri daha çox yaz və yay aylarında müşahidə olunur. Ehtiyacdan artıq qəbul edilən qidalar da bəzən insanları xəstə edə bilir. Qida zəhərlənməsi bakteriya, virus, ya da parazitlərlə çirklənmiş hər hansı bir qida və içki qəbulu nəticəsində meydana gəlir. Qusma və ishalla müşahidə olunan qida zəhərlənməsinə ən çox səbəb olan mikroorqanizmləri belə sıralaya bilərik: Rota, adeno, hepatit A kimi viruslar, escherichia coli, salmonella, shigella, listeria, clostridia, helikobakteri növ bakteriyalar və parazitlərə yoluxan qidaların qəbulu qida zəhərlənməsinə səbəb olur.



Düzgün şərtlərdə mühafizə edilməyən, tərkibinə qatılan digər qida maddələrinə görə qidalar tez xarab ola bilir.

Qida zəhərlənməsi əlamətləri çox vaxt 2-3 gün müddətində özlüyündən keçir və hər hansı bir müalicəyə ehtiyac duyulmur. Bu müddətdə bol miqdarda su və yağsız maye qəbul etmək itirilmiş mayenin bərpa olması üçün vacibdir.

Qida zəhərlənməsi 24-48 saat ərzində özlüyündən keçməzsə, həkimə müraciət olunmalıdır.

Qida zəhərlənməsindən qorunmağı əsas şərtləri ümumi qida təhlükəsizliyi qaydalarına, gigiyena şərtlərinə riayət etmək, soyuducuda mühafizə edilməli qidalara diqqət etmək, paketlənmiş qidalardakı son istehlak tarixinə diqqət etmək vacibdir. Yeməkdən əvvəl və sonra əl yumaq, tualetdən sonra əlləri bol şəkildə su və sabunla yumaq, açıq şəkildə saxlanılan suyu içməmək və açıql şəkildə satılan qidaları almamaq lazımdır.

Yumurta, ət, toyuq, balıq kimi dəniz məhsulları, süd və süd məhsulları kimi tez xarab olan qidaları bişirdiyiniz və istidiyiniz zaman bunların təzə olduğuna diqqət edin. Konserv qutularında olan qidaların təzə olmasına mütləq diqqət edin. Botulizm dediyimiz və çox təhlükəli bir qida zəhərlənməsi zamanı zərərli orqanizmlər qaz çıxmasına səbəb olur və bu zaman bakteriyalarla yoluxmuş qida konservlərinin qapaqları və qutuları şişir. Bu baxımdan qapaqları şişmiş, əzilmiş, açdığınız zaman içindən hava çıxan, qapağından hava daxil olan qidalardan qəti şəkildə uzaq durmalıyıq.

Tez xarab olmağa meyilli qırmızı ət, toyuq və balıq kimi qidaları bişdikdən sonra otaq temperaturunda bir neçə saatdan çox saxlamaq olmaz. Məsələn ət yeməyi bişdimi ya yeyilməli, ya da soyuducuda saxlanmalıdır. Üstün örtüm milçək qonmasın, ertəsi günədək mətbəxdə qalsın, deyə saxlamaq qidanın xarab olmasına və qida zəhərlənməsinə səbəb ola bilər. Qidalar otaq temperaturunda çox qaldıqda mikroorqanizmlər çoxlamağa başlayır və nəticədə qida zəhərlənməsinə səbəb ola bilir.

Həmçinin meyvə və tərəvəzlərin yetişdirilməsi əsnasında heyvan və insan nəcsi bulaşmış sularla sulanması, qidaların hazırlanması əsnasında təmiz olmayan əllərlə təmas, çiy əti kəsmək üçün istifadə olunan eyni bıçaq və taxtanı, tərəvəzləri də doğrayarkən istifadə etmək də qida zəhərlənmələri üçün zəmin hazırlayır".

***Ayşən Vəli***

# "Şəhid ailələrinə, müharibə əlillərinə nümunəvi diqqət və qayğı var"

"Rəşadətli Azərbaycan Ordusu dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüzü təmin etdi, milli qürurumuzu, milli kimliyimizi özümüzə qaytardı. Harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı tarixi Zəfəri bizlərə yaşatdıqlarına görə hər zaman Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarlığını ifadə edir, şəhidlərimizin ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət, qazilərimizə şəfa diləyir. Dünyaya səs salan şanlı Qələbəmizin qəhrəmanları canlarından, qanlarından keçərək tarix yazan, torpaqlarımızı düşmən tapdağından azad edərək şəhidlik zirvəsinə ucalan Vətən oğulları, sağlamlıqlarını itirən qazilərimiz, müharibə iştirakçılarıdır. Dövlət başçısı İlham Əliyevin hər bir çıxışında onların qəhrəmanlığı, şücaəti önə çəkilir, həyat yollarının indiki və gələcək nəsillər üçün bir məktəb olduğu bildirilir. Prezidentin sərəncamları əsasında 27 sentyabrın Anım Günü, 8 noyabr tarixinin isə Zəfər Günü kimi təsis edilməsi də Vətən oğullarının göstərdikləri qəhrəmanlıqların təsdiqi və təbliği məqsədi daşıyır." Bu fikirləri Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.





Vüqar Rəhimzadə qeyd edib ki, dövlət hər zaman vətəndaşlarının yanındadır: "İnsan amili Azərbaycanda dövlət siyasətinin əsasını təşkil edir. Cənab İlham Əliyevin bütün çıxışlarında bu çağırış yer alır ki, atılan addımların əsasında vətəndaş amili dayanır. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin müasir tələblər səviyyəsində həyata keçirilməsində də insan amili özünü qabarıq şəkildə büruzə verir. Dövlət başçısı İlham Əliyev bildirir ki, 30 ilə yaxın torpaq həsrəti ilə yaşayan soydaşlarımızın daha yüksək səviyyədə yaşayışını təmin etmək üçün bütün zəruri addımlar atılmalıdır. Bu gün həmin ərazilərdə həyata keçirilən və dünyanın diqqətində olan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri də deyilənlərin təsdiqidir."

YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Azərbaycan müharibə şəraitində yaşasa da 30 ilə yaxın dövrdə öz iqtisadi imkanlarını artırmaq, inkişaf modelini dünyaya təqdim etmək üçün səylər göstərib: "İqtisadiyyatın inkişafında neft amilinə verilən önəm ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi. Son illərdə neft gəlirlərinin düzgün istiqamətləndirilməsi nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilir. Regionların malik olduğu imkanlardan maksimum istifadə etmək üçün regional inkişaf proqramları uğurla icra edilir. Azərbaycanın hər bir layihəni uğurlu sonluqla başa çatdırması onun təşəbbüsləri reallığa çevirən ölkə mövqeyinə yeni əlavələr edir. Bu gün Azərbaycan işğaldan azad edilmiş bütün ərazilərimizdə bərpa və quruculuq işlərini öz daxili imkanları hesabına həyata keçirir. Bütün bunlar düşünülmüş və məqsədyönlü siyasətin nəticələridir."

Vüqar Rəhimzadə qeyd olunanlar fonunda günümüzün əsas çağırışı olan şəhid ailələrinə, qazilərimizə dövlətin diqqət və qayğısından da bəhs edib: "Təbii ki, hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibədən sonrakı vəziyyəti, şəhid və qazi ailələrinin sosial müdafiəsi xüsusi önəm kəsb edir. Tarixi Zəfərimizin ilk günündən bu kateqoriyadan olan insanlara dövlətin diqqət və qayğısı davamlılığı ilə diqqəti cəlb edir. Bircə faktı qeyd etmək kifayətdir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın tacı Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən tarixi Zəfərimizin qazanılmasında Vətən yolunda canını fəda edən şəhidlərin və qazilərin misilsiz qəhrəmanlıq göstərdiklərini xüsusi vurğuladı. O da təsadüfi deyil ki, müharibə Azərbaycanın hərbi-siyasi Qələbəsi ilə başa çatdıqdan sonra dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ilk görüşü 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə oldu. Ölkə Prezidenti o zaman görüşün səbəbini belə əsaslandırmışdı ki, müharibə başa çatandan dərhal sonra gəlmişəm sizə öz hörmətimi ifadə edim: "Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın."

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin bu fikirləri özündə bütün məqamları ehtiva edir: "Cənab Prezident həmin görüşdə bu məqamı da xüsusi qeyd etmişdir ki, ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Onları normal həyata qaytarmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bütün dövlət qurumlarına, özəl şirkətlərə müraciət edərək bildirirəm ki, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizi işlə təmin etmək üçün xüsusi addımlar atılacaq."

"Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları şəhid ailələri və qazilərin problemləri ilə yaxından maraqlanır, onların həlli istiqamətində tədbirlər həyata keçirilir" söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, dövlət başçısı tərəfindən bu istiqamətdə imzalanan Fərman və sərəncamlar, Birinci vitse-prezidentin şəhid ailələrinə və müharibə əlillərinə qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirələyiq hal kimi qiymətləndirilir: "Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da bu diqqət və qayğının tərkib hissələridir. Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamına əsasən, 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsinin nəzərdə tutulması xüsusi qeyd etməliyik. Ötən il 3 min mənzil və fərdi ev şəhid ailələrinə və qazilərə təhvil verilib. 2025-ci ilə qədər mənzillə təmin olunmayan bir nəfər də olsun şəhid ailəsi və Qarabağ qazisi qalmayacaq."

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, ölkə Prezidenti İlham Əliyevin müvafiq Fərman və sərəncamlarına əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələri və qazilərin məşğulluq problemi aradan qaldırılır. Prezidentin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" fərmanları şəhid ailələri və qazilərin rifahının yaxşılaşdırılmasının, onlara göstərilən dəstəyin, davamlı qayğının bariz nümunəsidir.

Vüqar Rəhimzadə vurğulayıb ki, şəhid ailələri və qazilərdən bəhs edərkən dövlət başçısı İlham Əliyevin 2020-ci ildə imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı ilə "YAŞAT" Fondunun təsis edilməsini də qeyd etməliyik. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məlumatında bu statistik rəqəmlər öz əksini tapıb ki, Fonda 73 milyon manatdan artıq vəsait toplanıb. Xərclənən məbləğ təxminən 62 milyon manatdır. Xərclənən vəsait əsasən bu vətəndaşların məişət şəraitinin yaxşılaşdırılmasına, təhsil, peşə hazırlığı və yaradıcı potensialının inkişafına, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanmasına, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsinə yönəlib.

YAP Xətai rayon təşkilatının sədri bu məqamı da təəssüf hissi ilə qeyd edib ki, bəzi qazilərimizin, müharibə iştirakçılarının müəyyən tələbləri hər zaman dövlətin, ölkə Prezidentinin atdığı addımların əhəmiyyətini azaltmaq, onlara qara eynək arxasından baxmaq yolunu tutan antimilli dairələr üçün öz çirkin məqsədlərini həyata keçirməkdə bir vasitəyə çevrilib. Hesab edirəm ki, antimilli ünsürlərin qazi kimi şərəfli ada xələl gətirmək cəhdləri qətiyyən yolverilməzdir. Dövlətimiz hər zaman tarixi Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin ailələrinin, qazilərimizin yanındadır.



# "Tovuz hadisələrini qələbənin başlanğıcı kimi adlandırmaq olar"

*Hərbi ekspert açıqladı*

**"Tovuz hadisələrini Azərbaycan dövlətinin qələbəsinin başlanğıcı kimi adlandırmaq olar. Ona görə ki, düşmənin Tovuz təxribatı Azərbaycanın öz torpaqlarının güc yolu ilə geri alacağını göstərdi". Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov bildirib.**

Onun sözlərinə görə, düşmənin kobud şəkildə atəşkəsi pozması, heç bir qaydaya əməl etməməsi onların necə bir dövlət olmasından xəbər verir: "Bunlar hamısı onu göstərir ki, düşmən hər an təxribat törədə bilər. Tovuz bizim üçün strateji istiqamət daşıyan istiqamətdir. İstər logistik yollar, istərsə də enerji kəmərləri Tovuza çox yaxın məsafədən irəliləyir. Ermənistanla olan məsafələrə nəzər alsaq Tovuz Ermənistana daha yaxın olan bölgədir. Düşmən də həmin ərazilərdəki yüksəkliklərə hakim olmaq istədi. Amma bizim ordumuz buna icazə vermədi. Azərbaycan ordusu Tovuz döyüşlərində düşmənə layiqli cavabı verdilər. Düşmənin niyyətinin həyata keçməsinə aman vermədilər. Əlbəttə iri çaplı silahlar və artilleriyalı təxribatın qarşısını alarkən itkilərimiz oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Başda general Polad Həşimov olmaqla bir qrup zabitimiz şəhidlik zirvəsinə ucaldı. Yerində verilən tapşırıqlar və digər tədbirlər nəticəsində Azərbaycan ordusu düşmənə layiqli cavab verdi. Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyev geosiyasi arenada hədəfləri müəyyənləşdirərək həmin hədəfləri dəf etmək üçün böyük səylər göstərdi. Nəticədə Azərbaycan 44 günlük müharibədən sonra qələbə çaldı. Qardaş ölkə olan Türkiyə bu hadisələr zamanı Azərbaycanın yanında oldu.

Tovuz hadisələrindən sonra Azərbaycan ordusu əks hücuma keçərək qısa bir zaman ərzində 30 il işğal altında qalmış torpaqlarımızı işğaldan azad etdi. Biz bu qələbəni Ali Baş Komandan İlham Əliyevə, şəhidlərimizə və qazilərimizə borcluyuq".

***Abutel İlhamqızı***

ARAŞDIRMA

# “Tetahilinq”

## nədir və psixologiyamıza necə təsir göstərir?



**İnsan beyni elektroensefaloqrafla izlənilə bilən elektrik aktivliyinə malikdir. İmpulslar müxtəlif tezliklərdə əmələ gəlir. Müəyyən edilmişdir ki, müxtəlif diapozonlar kifayət qədər spesifik vəziyyətlərə uyğundur. 4-8 hertz tezliyi ilə bizi maraqlandıran teta dalğaları dərin istirahət ritmləridir. Onlar insan demək olar ki, yuxuya getdikdə, oyanmaq üzrə olduqda və ya REM (yuxuda görmək) yuxusunda olduqda baş verir.**

Teta şəfasının tərəfdarları əmindirlər ki, teta vəziyyəti təkcə reallıq və yuxu arasındakı sərhəd deyil, həm də şüur və şüuraltı arasındakı sərhəddir. Buraya çatan insan bir növ transa girir ki, bu zaman daha yüksək mənəvi qüvvə ilə əlaqə qurmaq və onun köməyi ilə öz həyatını yaxşılaşdırmaq prosesinə başlamaq imkanı əldə edir.

Dünyada minlərlə insan bu təsirli ezoterikdə iştirak edir.

”Theta Healing” münasibət və inanclarla işləməkdən ibarətdir. Şüuraltı zehnimiz erkən uşaqlıqda qoyulmuş nümunələrlə doludur və bəzi münasibətlər bir neçə əsr əvvəl genetik kodda möhkəm kök salmışdı. Bizim ailələrimizin əcdadlarımızın başına müxtəlif hadisələr gəlib, onlar müxtəlif talelər yaşayıblar, bəzi münasibətlər onlara o qədər təsir edib ki, indi bu inanclar, qorxular, komplekslər və stereotiplər yüz illərlə yaşayıb, artıq bizə təsir edir. Bu parametrlərin məkrliliyi ondan ibarətdir ki, siz onları heç fərqinə belə varmayacaqsınız.

”Theta Healing”, şübhə altında qalarkən tətbiq edilə bilməz. Yeri gəlmişkən, bu səbəbdən bir çox insanlar bu təcrübələri qeyri-işlək adlandırırlar. Nəfəsi izləməyə başlayarkən hər nəfəsin ritminə, dərinliyinə diqqət yetirmək, özümüzü problemlərdən və mənfi düşüncələrdən yayındırmağa çalışmaq deməkdir.

Başqa bir yol isə meditasiyadır. Münasibətlər əsasən uşaqlıqda valideynlərin və ətraf mühitin təsiri altında formalaşır. Bura həm də yeniyetməlik və yetkinlik dövründə ortaya çıxan hallar daxildir.

**”Tetahealer” Leyla Kürçaylı** SİA-ya açıqlamasında ”Theta Healing”in yaranma



tarixindən və insanlara olan faydalarından danışıb.

”Theta Healing” bilinc altı səviyyəsində meditasiya yolu ilə şəfalanma metodikasıdır. 1995 ci ildə amerikalı Vayana Staybl tərəfindən yaradılıb. ”Theta Healing”in yaranışından bir neçə il öncə Vayanaya sümük xərçəngi diaqnozu qoyulur. 80% bir ayağının amputasiya olunacaqı deyilir. Sırf ”Theta Healing” sayəsində Vayana bu xəstəliyə güc gələ bilir. Və bu hadisədən sonra thetahealing təlimlərini və tədrislərini həyata keçirmək üçün bu metodikanı sistemləşdirir. Hal-hazırda dünyanın 30 dan çox ölkəsində ”Theta Healing” təlimləri keçirilir. Avropanın bir çox xəstəxanalarında həkimlərlə yanaşı ”thetaheallerlər” də çalışır. Xəstəliyin həm fiziksəl həm ruhsal səbəblərini aradan qaldırmaq üçün kompleksli müalicələr möhtəşəm nəticələr verir.

”Theta Healing”lə hər insan məşqul ola bilər. Bu metodika ilə istənilən xəstəliyin kök inancı və problemləri aradan qaldırıla bilər. Hər bir xəstəliyin ruhsal səbəbi var. Hər bir ruhsal problemin isə bilinc altında yatan səbəbi var. Bu səbəblər aradan qaldırıldığı zaman yaşadığımız problemlərdə aradan qalxmış olur. Belə problemlərin sırasına fobiyalar ,komolekslər, tiklər, qorxu və həyəcan, aşırı titizlik və s. kimi həyatımızı çətinləşdirən məqamlarda daxildir. 7 yaşdan kiçik uşaqlarda yaranan problemləri onların valideyinləri ilə seans apararaq aradan qaldırmaq mümkündür. ”Theta Healing” əqli qüsurlu insanlarda adətən effektiv olmur. Çünki həmin kəslər əksər zaman diqqətlərini bir obyekt üzərində toplamaqda çətinlik çəkirlər.

Bugünə kimi ”Theta Healing”in kiməsə mənfi bir təsir göstərdiyini görməmişəm. Çünki bu metodika başdan sona pozitiv düşüncələr və hisslər üzərində qurulub. Təməl olaraq yüksək enerji üzərində yaranmış bir bilinc altı meditassiya növüdür. Ölkəmizdə çox sayda ”Theta Healing” mərkəzləri fəaliyyət göstərir. Onlardan ilki 2017 ci ildə Xavər Tağızadənin yaratdığı ”Theta Healing” Azərbaycan mərkəzidir. Xavər xanım Azərbaycandaki ilk thetahealer,mənim müəlliməm və məni dünyaya gətirən qadındır. Onunla fəxr edirəm.

Yuxarıda qeyd etdiyim kimi mənim bu sahəyə marağım 5 il öncə anamın ”Theta Healing” tədrisi alması ilə başladı. Onun bu metodika sahəsində öz şəxsi həyatında qəth etdiyi yol məni ilhamlandırdı. Anladım ki ”Theta Healing” əslində insan doğulduğu andan etibarən onun həyatında yer alması qərəkən bir anlayışdır. ”Theta Healing” insanın bu həyatdaki sığortasıdır. Onun daxili gücünü, potensialını və özgüvənini artıran, pozitivə kökləndirən, pis düşüncələrdən, neqativlərdən uzaq durmağı öyrədən bir fəlsəfədir. ”Theta Healing” gələcəkdə insanlığın, xoşniyyətliyin, sevginin və şəfanın əsas mənbəyinə çevrilə biləcək potensialda bir yaşam tərzidir. Bəli mən buna yaşam tərzi deyirəm. Çünki hər ”thetahealer” bu metodikanı öyrəndikdə öz yaşam keyfiyyətini artıraraq cəmiyyətə və özünə faydalı və gərəkli bir insana çevrilir.

### “Theta Healing” niyə təhlükəlidir?

”Theta Healing” ilə az-çox tanış olan insanların ən böyük qorxuları köhnə, mənfi inancların boşaldılması və onların yerinə yeni nümunələrin yüklənməsi prosesləridir. Adətən belə mürəkkəb iş teta-şəfanın ixtisaslı mütəxəssisləri tərəfindən həyata keçirilir. Lakin təcrübəsiz təcrübəçi bir insanın inancları ilə işləyirsə, belə bir boşaltma çətin ola bilər.

”Theta Healing Master” bir insanın şüuraltından bütün nümunələr toplusunu boşalda bilər. Belə bir seansdan sonra pasiyent keçmişi olmayan bir insan kimi özünü boş hiss edə bilər. Bəlkə kimsə sarsıntılar və stresslər haqqında xatirələrdən qurtulmağa sevinəcək. Ancaq bilincaltının kompleks təmizlənməsi hissi yeni bir qorxuya, depressiya hissinə səbəb ola bilər.

Yeni nümunələrin yüklənməsi prosesindən sonra bir şəxs yan təsirlərlə qarşılaşa bilər: yüngül başgicəllənmə, zəiflik. Təcrübəli ThetaHealing ustası bu barədə xəbərdarlıq etməlidir.

ThetaHealing-in populyarlığının kəskin artması qaçılmaz olaraq sürətli nəticələr vəd edən ”mütəxəssislər” yetişdirir. Bu cür kursların sadəlöhv iştirakçıları bir seansda şüuraltılarını tamamilə ”yenidən canlandıra” biləcəklərini gözləyirlər. Təbii ki, insanlar belə kurslardan məyus halda ayrılırlar. Sosial şəbəkələrdə neqativlərin bolluğu buna görədir.

**Psixoloq Aytən Ələkbərova** qeyd edir ki, ”Theta healing”in psixoloji və tibbi təsirləri həddindən artıq effektivdir. Hansı effektlərdən danışa bilərik desək bunun içində bir neçə kriteriya var.



İlk olaraq insanın özündə yaratdığı bir inam. Yaranan inam daxilində həyatında və yaxud ətrafında baş verəcək xəstəliklərin yan təsirindən ötəri halda keçməkdir. Deyək ki, insan yaranan xəstəliyi ilk olaraq necə qarşılayır. Və psixoloji olaraq onun immuniteti buna cavab verirmi yoxsa yox? Çünki hər bir insanda ilk olaraq yaranmış xəstəliyə qarşı müəyyən reaksiyalar yaranır. Biz belə insanlarla işləyərkən meditasiyanın müxtəlif metodlardan istifadə edərək onun xəyali gücünü ön yarğıya çəkirik. Həmin o ön yarğının içərsində ilk olaraq rənglər aləmində, təbiətin qoynunda hiss edir. Bir mühitdən digər bir mühitə gedərək ruhunda dirçəliş yaranır. Müəyyən metodlardan seçdiklərdən asılı olaraq, istər rənglər olsun, istər ağac terapiya olsun istər nağıl terapiyası olsun immuniteti qaldıraraq özünə inam hissi yaradır və xəstəliyə qalib gəlməsinin ilk seanslarını həyata keçirmiş olurlar.

Bəzən uğur terapiyaları apardığımız zaman pasiyentlər uğursuz bir durumda bizə müaciət etmiş olurlar. Təbii ki ilk olaraq biz onların psixiki tempramentini və psixi xüsusiyyətini üzə çıxardırıq sonra isə onlar arasında bir ”iks” qoyaraq sanki bir riyazi tənlik kimi axtarışda oluruq. Nəticədə də pasiyentlə psixoloq arasında effektiv bir ünsiyyət yaranır. Ünsiyyətin nəticəsində də meditasiyamızın uğurlu keçməsinin əsas səbəbi də psixoloqun kvant düşüncə ilə pasiyentin ruhuna toxunmasıdır. Bütün bunların nəticəsində insanda özünə inam, ruh yüksəkliyi, yüksək səviyyədə enerji və həyat eşqi yaranır.

***Havar Şəfiyeva***

---

# ERMƏNİ MEDİASI:

## “50 erməni əsgərinin qalıqları morqlarda çürüyür”

Erməni mətbuatının yazdığına görə, 44 günlük müharibədən ötən 20 aya rəğmən, cəbhə xəttində həlak olan erməni əsgərlərindən 50 nəfərinin qalıqları identifikasiya olunmayıb və hələ də morqlarda çürüməkdə davam edir. ”100 çətin sümük nümunələri daha əvvəl USAİD-in maliyyə dəstəyi ilə ICMP təşkilatı tərəfindən identifikasiya edilib”, deyə yazan erməni mediası əlavə edib ki, bununla yanaşı, 44 günlük müharibədə həlak olmuş hərbi qulluqçuların qalıqlarının ekspertizası və DNA-sı üçün Ermənistanın səhiyyə nazirliyinə hökumətin ehtiyat fondundan 31,1 milyon dram ayrılacaq. Bununla bağlı qərar cümə axşamı günü Ermənistanın nazirlər kabineti tərəfindən verilib”, deyə məlumatda bildirilir.

Qeyd olunur ki, qərar layihəsinə görə, 2020-ci ilin oktyabrından 2022-ci ilə qədər Ermənistanın Səhiyyə nazirliyinin Tibbi məhkəmə elmi-praktiki mərkəzinin molekulyar genetika ekspertizası tərəfindən parçalanmış, skeletləşmiş, tanınmaz hala qədər yanmış, çoxsaylı şəkildə dəyişilmiş qalıqlar identifikasiya edilib. Nəticədə naməlum hərbi qulluqçuların bir qisminin qalıqlarının kimlərə məxsus olduğu müəyyən olunub. Hazırda isə 50 erməni hərbi qulluqçusunun qalıqları hələ də morqlarda qalmaqda davam edir.



***Rövşən***

# Səfərin uğurlu olsun, yollarına günəş doğsun

Yoxluğundan doğan qəm-qüssədən sıyrılıb nələrisə qələmə almaq, əslində, onun həmişə, zaman-zaman boy göstərəcək siqlətindən, böyüklüyündən, tükənməz energetikasından bəhs eləmək imkanı verir. Bu imkandan qədərincə yararlanmaq da olduqca çətin, ağrılı, əzabvericidir. Əməkdar mədəniyyət işçisi Ənvər Çingizoğlu yaradıcılıq və çoxçalarlı münasibətlər sistemində hələ kəşf olunmadan, tam öyrənilmədən qeybə çəkilən bir ul-



***Akif Cabbarlı***

duz timsalındadır. O özü ilə haqq dünyasına çəkisi və miqyası ölçüyəgəlməz dərəcədə sirləri də apardı. Səbirlə, aramla, asta-asta milli-mənəvi dəyərlərimizdən, tarixi keçmişimizdən, etnoqrafik zənginliyimizdən, nəsil-şəcərə müəmmalarından incə, zərif "xalılar toxuyan", araşdırmalar aparan yorulmaz sənət adamı hələ bir çox cavabını gözləyən mətləblərə geniş spektrdə işıq salmaq istəyində, niyyətində idi...

## Ənvər Çingizoğlu

Çatdıra bilmədi. Alınmadı. Azad, Müstəqil Azərbaycan, çiçəklənən Qarabağ sevdalısı Ənvər Çingizoğlu 60-ı təzəcə tamamlamışdı ki, ömür qırıldı, tale çırağı qəfildən söndü. Ömür çırağı sönsə də Ənvəri tanıyan, sevən insanların qəlbində onun xatirəsinə, şəxsiyyətinə ehtiram və məhəbbət məşəli alovlandı. Bu sakit, təmkinli və eyni zamanda şux təbiətli insanın yaralı qəlbində nə qədər tükənməz yaradıcılıq və yaşamaq enerjisi vardı... Hər kitabı çapdan çıxdıqca uşaq kimi sevinirdi, bu nəşrləri övladları sanırdı. İndi övladları da, yarımçıq əsərləri də yetim qaldılar, ənvərsizləşdilər. Amma balaları da, biz dostları da, həmkarları və naşirləri, iş yoldaşları da bu gün də, sabah da və həmişə Ənvərin xatirəsi ilə qolboyun, qucaq-qucağayıq.



Tanınmış yazıçı-publisist, şair Əli Rza Xələfli Ənvər müəllimin 60 illik yubileyinə həsr etdiyi geniş yazıda vurğulayırdı;

Yüzdən çox kitabı yazıb - yaradan,
Ənvərin sirləri keçən gücü var.
Söz üstündə sözü ağı, qaradan,
Yaxşısını yamandan seçən gücü var.

Müəllifin bu misraları həqiqətən də Ənvər Çingizoğlunun xarakterinə, dünyaya baxışına, elmi axtarışlarına güzgü tutan bədii yanaşma kimi qəbul edilməlidir.

İllər, aylar keçəcək, sıralarımız daha da seyrələcək, ona görə də indi bizə nə qalır; ətrafımızdakı cavanlara deyək, çatdıra bilək ki, Ənvər müəllim sıradan bir qələm adamı deyildi, onun araşdırmaları, etnoqrafik düşüncə və tapıntılarının özü araşdırılıb elmi əsər səviyyəsində işləmək, araya-ərsəyə bir fundamental toplu qoymaq üçün mükəmməl mənbədir.

Jurnalistlər məhəlləsi bu günlər bütövlükdə elə bil küskün, dalğın, gözləri yol çəkən, boynubükük uşaq görkəmindədir. Gözlərimiz daim onun yaşadığı blokun giriş qapısındadır. Elə bilirik ki, möcüzə baş verəcək, qapı açılacaq, ağırtaxtalı kişi ləngərli addımlarla yaxınlaşıb hamımızla xoş - əhvaldan sonra astadan dillənəcək - "kimin cürəti varsa otursun bir nərd oynayaq".

Möcüzə baş vermir. Bizim gözlərimiz isə yoldadır. Ənvər Çingizoğlu da ki, lap uzaq səfərə çıxıb. Allahın dərgahına, cənnətə sarı yollanıb.

***Səfərin uğurlu olsun!***
***Əbədiyyətin xeyirə calansın əziz dost, mehriban qonşu, dəyərli qələm yoldaşımız!***

# Ermənilər

## Məsihə də etiraz edir

**İsa Məsihin heykəlinin qoyulması layihəsi ətrafında vəziyyətin gərginləşdirilməsi bəlkə də cəmiyyəti milli məsələlərdən yayındırmaq cəhdidir. Bu gün Ermənistanda baş verən proseslərdə kimin həqiqətən ciddi rol oynaması barədə Ermənistan mətbuatı da geniş materiallar dərc edir.**

Sosial şəbəkələrdə qızğın polemika, sovet dövrünün ruhunda kollektiv məktublar, ittiham xarakterli çıxışlar... Ağızından köpük çıxan vətəndaşlar Ermənistanda Məsihin heykəlinin ucaldılması ideyasını tənqid edirlər. Bir stəkan suda baş verən bütün bu tufanın arxasında kimin kölgəsi olsa yaxşıdır, Ermənistanın keçmiş prezident Levon Ter-Petrosyan. Ermənistanda hökm sürən xaosun içində "ölü dillər mütəxəssisi" adını almış Levon ermənilərin diqqətini bu "problem"ə çəkib. İndiki baş nazirin komandası isə çox məharətlə odun üstünə yağ tökməkdə olan Paşinyan özünün "icazələr"i ilə cəmiyyətdə bəzi çaşqınlıqlar yaradıb və vəziyyəti tamamilə qarışdırıb.





Digər tərəfdən, Bakı və Ankara ilə danışıqlar prosesləri, Qarabağ və Zəngəzurun (ermənilər Sünik deyir- müəl.) taleyi, hərbi əsirlərin qaytarılması, mədəni və dini irsin qorunması problemləri artıq tamamilə unudulub.

Müqavimət hərəkatının etirazları zamanı Paşinyanın partiyasından olan deputatlar müxalifəti revanşizmdə ittiham edərək bildiriblər ki, "keçmişlər" ölkədə hakimiyyəti bərpa etmək istəyirlər. Necə deyərlər, kimin inəyi ağlar? .. "Məxməri inqilabçı"nın rəhbərlik etdiyi indiki rəhbərliyin onurğasını birinci prezidentin silahdaşları, tərəfdarları və ya tələbələrinin təşkil etdiyini ancaq korlar hiss etməyəcək. Xərçəngli şiş metastaz verdi, hakimiyyətin bütün idarələrinə nüfuz etdi. Vaaqn Xaçaturyan, Xaçatur Sukiasyan, Andranik Köçəryan...

Gördüyünüz kimi, "köhlən atlar" Ter-Petrosyanın açdığı şırımları korlamadılar və onların əsas ideoloqunun planı israrla həyata keçirilir. Onlara həm də Ter-Petrosyanın komandasının gənc cinahının nümayəndələri - Suren Papikyan, Lilit Makunts, Arayik Arutyunyan kömək edir... Hamısını saymaq mümkün deyil.

Bəs indiki komandanın təmsilçiləri, revanşistdirlərsə, hansı "keçmişlərin qisası"ndan danışırlar?.. Ter-Petrosyan "dərin dövlət" qurmuş bir növ yerli "erməni Gülən"ə çevrilib və 4 il əvvəl İrəvan küçələrində özünü göstərdi, tələbəsini, xələfini cəmiyyətə "təqdim etdi".

Oktyabr 2021-ci il... Keçmiş daxili işlər naziri Vano Siradeqyanın külü Ermənistana gətirildi. Sürgündə dünyasını dəyişən 90-cı illərin bu iyrənc siyasətçisi ilə təntənəli şəkildə, bütün dövlət təltifləri ilə, protokol qaydasına uyğun olaraq vidalaşdılar. Anım mərasimində baş nazirin özü və Siradegyanın ANM-dəki tərəfdaşları iştirak edirdilər. Bəli, adı qaranlıq 90-cı illərlə - müstəqil Ermənistanda ilk sifarişli qətllər, basqınlar, cinayətlər, benzin müharibələri ilə sıx bağlı olan birisi Levon Ter-Petrosyan üçün "fenomen" idi.

O zamanlar sözün hərfi mənasında Ermənistan qaranlıqda idi. O zamankı prezident Qərbin tələbi ilə AES-i dayandıraraq ölkəni tam qaranlığa qərq etməklə "Qaranlıqlar kralı" adını aldı. Amma qaranlıq, bildiyiniz kimi, işıq gələndə dağılır. Ermənilər üçün "İşıq kralı" tituluna sahiblənən Şarl Aznavur adlı Fransa ermənisi ölkə əhalisinin elektrik haqqını ödəyərək əsl qəhrəmana çevrildi. Bu gün isə 90-cı illərin personajları yenidən səhnəyə çıxıb. Ter-Petrosyan tərəfsizliyini nümayiş etdirmək, siyasi döyüşdən üstün olduğunu göstərmək cəhdlərinə baxmayaraq, hələ də zaman-zaman hazırkı baş nazirə çiyin-çiyinə vermək məcburiyyətindədir. "Teslim olan Paşinyan deyil, Ermənistan təslim oldu" deyən Petrosyan bir müddət əvvəl baş nazirin yerində hər kəsin ona təklif olunan sənədi mütləq imzalayacağını bildirib.

Ümumiyyətlə, qaçılmazlıq və əzab Ter-Petrosyanın sevimli motivləridir. 2020-ci ilin payızındakı məğlubiyyətdən sonra bütün çıxışlarının tonunu bir cümlə ilə ifadə etmək olar: "Sənə demişəm... Həmişə demişəm".

Bu arada 2018-ci ildə hakimiyyətə gələnlər onun "peyğəmbərliklərinin" gerçəkləşməsi üçün hər şeyi etdilər. Belə ki, bir vaxtlar onun Qarabağ nizamlanması planını cılızcasına rədd edən xalq birdən onun hər şeyin necə bitəcəyini əvvəlcədən bilən "peyğəmbər" olduğuna inanır. Yalnız bu, bir peyğəmbərlik deyil, bir cəfəngiyatdır. Bu gün heç kim demir ki, onun dövründə "status müqabilində torpaq" məskunlaşma variantı işə salınıb. Başqa bir şey ondan ibarətdir ki, sonrakı prezidentlər bu paradiqmanı dəyişdirə bilmədilər. Digər tərəfdən, Ter-Petrosyanın bir çox izləyiciləri indi yorulmadan onun status, "bufer zona" və kommunikasiyaların bloklanması ilə bağlı "müdrik" mövqeyindən danışırlar.

Yaxşı, ideyalarını reallaşdırmaq üçün Ter-Petrosyanın bu gün həm də Paşinyanın simasında torpedo olduğunu deyir. O, iddia edir ki, tərəfdaşlar ermənilərin Qarabağın statusu ilə bağlı "iddiaları azaltağı" gözləyirlər. Türkiyə ilə münasibətlərin qurulması, sərhədin açılması prosesi üçün gecə-gündüz lobbiçilik edən Sukiasyanın simasında da bir qurbanlıq qoç var.

Ermənistanda 2022 etiraz hərəkatının simvollarından biri də "Zartnir, lao" ("Oyan, oğlum") mahnısı olub. Mahnıda ana oğlunu yuxudan oyadır, ermənilərin acınacaqlı durumundan danışır, onu düşmənlə döyüşə çağırır.Paşinyanın və Petrosyanın tərəfdarları düşünürlər ki, müxalifət yatmış oğlunun çoxdan oyandığından xəbərsizdir. Yalnız indi Ermənistanı sevmək əvəzinə indi ögey anasının ona iki orta barmağını göstərdiyini görür. Bəlkə müasir Ermənistan oğullarına doğma olmayan kimi davranırsa, doğrudan da əsəblərini itirib? ..

Bir şey aydındır, Ermənistanın birinci prezidentinin ideyalarının canlandırmaq cəhdlərinə baxmayaraq, ölü iyinin gəldiyini anlamağın vaxtı çatıb.

İsa Məsihin Braziliyadakı möhtəşəm abidəsinin təxminən oxşarının İrəvan yaxınlığında ucaltmaq istəyən Tsarukyana gəlincə, bu şəxsin Ermənistanın indiki iqtisadi-sosial durumunda milyonlarla dollar vəsaiti adi heykəl inşa etməyə xərcləməsi başadüşülən deyil. Erməniləri də əsəbləşdirən, özündən çıxaran da məhz budur. Ermənilərə Məsihmi, dolu qarınmı lazımdır?

***V.VƏLİYEV***

ANALİTİK + AKTUAL

# Ermənistanda milli, dini və məzhəb ayrıseçkilik prinsipi qüvvədədir

**Monoetnik Ermənistanda dini ayrıseçkilik faktları bu gün də öz mövcudluğunu qoruyub-saxlamaqdadır. Belə ki, özlərini "Erməni Apostol Kilsəsinin mənsubları" adlandıran monofizit ermənilər nəinki digər dinlərə, hətta xristianlığın digər qollarına qarşı dözümsüzlük nümayiş etdirirlər və maraqlıdır ki, bu kimi faktlar yalnız erməni cəmiyyətinə xas olan ənənə deyil, həmçinin dövlət səviyyəsində yürüdülən siyasətin tərkib hissəsidir. Üstəlik, əgər hər hansı bir erməni misal üçün, Erməni Apostol Kilsəsini tanımayaraq digər xristian qoluna, həmçinin fərqli dinə inanırsa, bu amil də ölkədə mənfi cəhət kimi qiymətləndirilir. Hətta bu gün Ermənistanda etnik yezidlərə qarşı da hansı münasibətin nümayiş etdirilməsi göz önündədir. Əbəs deyil ki, Ermənistanda zaman-zaman yezid qiyamları baş qaldırmaqdadır.**



> Milli Təhlükəsizlik Xidməti hökumətə vaxtilə faşist Almaniyasının tətbiq etdiyi qanun layihəsini təqdim edib




Müxtəlif vaxtlarda isə Rusiyada və s. ölkələrdə yaşayan yezidlər Ermənistanda onlara qarşı yürüdülən diskriminasiya siyasətinə qarşı etiraz aksiyaları keçirirlər.

Ermənistanın MTX xarici ölkələrdə yaşayan erməni diasporasının təmsilçilərinin ölkəyə daxil olmaları, habelə onların etnik indentifikasiyası prosesinin sərtləşdirilməsi tələbi ilə çıxış edib

SİA xəbər verir ki, Sputnik-Armeniyanın yazdığına görə, Ermənistanın Milli Təhlükəsilik Xidməti (MTX) xarici ölkələrdə yaşayan erməni diasporasının təmsilçilərinin ölkəyə daxil olmaları, habelə onların etnik indentifikasiyası prosesinin sərtləşdirilməsi tələbi ilə çıxış edib. Maraqlıdır ki, Ermənistan MTX-i bunu rəsmiləşdirərək bildirir - vətəndaşlıq alan etnik ermənilər bir sıra güzəştlər əldə edirlər ki, sonradan həmin güzəşt və istisnalar suiistifadələr ilə müşahidə olunur. "Ermənistan MTX Ermənistan vətəndaşlığı alanlara qarşı qanunları sərtləşdirməyi təklif edir", deyə rəsmi məlumatda bildirilir, üstəlik bunun üçün yeni layihə təqdim edilir.




Eyni zamanda, digər millətlərə məxsus insanların vətəndaş olmaları üçün də ayrıca təkliflər irəli sürülüb. Misal üçün, bildirilir ki, digər etniklərin Ermənistan respublikasında yaşamaları və vətəndaşlıq almaları üçün hüquqları olsa da onlar müəyyən şərtlər əsasında qanunları qəbul etməlidirlər. Erməni olmayan belə şəxslər ən azı üç il Ermənistanda yaşamalı, məişət səviyyəsində erməni dilini bilməli, həmçinin ölkə konstitusiyası haqqında müəyyən bilgilərə sahib olmalıdırlar. Bu tələbi haradasa anlamaq olar, amma...

Ermənistan MTX: "Etnik identifikasiya ilə bağlı problemlər yaşanır (?!-R.R.), belə ki, mütəmadi olaraq bu aspekt heç yerdə sənədləşdirilərək fiksasiya edilmir"

Amma erməni təhlükəsizlik xidmətinin xaricdən repatriasiya olan digər ermənilər qarşısında qoyduqları şərtlər diqqət çəkir. Məsələn, tələb olunur ki, qanun çərçivəsində etnik ermənilər üçün təqdim edilən güzəştlərə rəğmən, onların ölkənin ictimai-siyasi həyatına qoşulmalarından əvvəl genləri indentifikasiya olunmalıdır.



"Araşdırmalar göstərir ki, Ermənistan vətəndaşlığı üçün müraciət edən ermənilər heç vaxt Ermənistanda olmayıblar, yaxud 4-5 ildən bir, ya da daha gec ölkəni ziyarət ediblər... Pasportlar yalnız başqa ölkələri ziyarət etmək üçün istifadə olunur. Etnik identifikasiya ilə bağlı problemlər yaşanır (?!-R.R.), belə ki, mütəmadi olaraq bu aspekt heç yerdə sənədləşdirilərək fiksasiya edilmir. Həmçinin, Erməni Apostol Kilsəsində xaç suyuna çəkilmə (???!!!-R.R.) ilə bağlı sənədlərin saxtalaşdırılması hallarına rast gəlinir və bilinmir ki, həmin şəxs Erməni Apostol Kilsəsində, Erməni Katolik Kilsəsində, yaxud Erməni Yevangiliya Kilsəsində xaç suyuna çəkilib...", deyə məlumatda bildirilir.



Belə təhlükəli ideologiyaların qarşısı isə zamanında alınmalıdır, əks halda regionumuzda növbəti fəsadların yaşanacağını da istisna etmək olmaz



Göründüyü kimi, Ermənistanın Milli Təhlükəsizlik Xidməti bu kimi ayrıseçkiliklər kontekstində açıq-aşkar faşist Almaniyasında tətbiq edilən qanunlar əsasında layihələr təqdim edir. İnsanlar və onların dini baxışlarında fərqlər qoyur, üstəlik genetik mənsubiyyət məsələlərində də irqi yanaşma nümayiş etdirir.

Söz yox ki, bu kimi layihələrin rəsmi qaydada irəli sürülməsi və hökumət tərəfindən qəbul edilməsi bir daha sübut edir ki, Ermənistanda hansı siyasi qolun iqtidarda olmasına rəğmən, dini və irqi, habelə milli mənsubiyyət ayrıseçkiliyi öz mövcudluğunu qoruyub-saxlayır və bu kimi əslində regiona ciddi təhlükələr vəd edir. Belə təhlükəli ideologiyaların qarşısı isə zamanında alınmalıdır, əks halda regionumuzda növbəti fəsadların yaşanacağını da istisna etmək olmaz.




*Rövşən RƏSULOV*

# O “inkişaf” hara, bu inkişaf hara...

*...xəbis erməni qısqanclığı kimi qəbul edilən etiraf*

“...O vaxt, fevralın 24-də, dramın məzənnəsi hələ dəyişməmiş, biz deyirdik ki, müharibənin başlaması qısa vaxtda Ermənistan iqtisadiyyatına xeyir verəcək. Əsas da var idi, birincisi, deyirdik ki, müharibə ilə ”razılaşmayan” bəzi ruslar Ermənistana gələndə özləri ilə filan qədər pul gətirəcəklər, ikincisi isə, Rusiya qaz və neftini rubla satmağa başlayacaq və biz bundan da ”n” qədər irəli düşəcəyik”.

Deməli, bunu Ermənistanın keçmiş baş naziri olmuş iqtisadçı və eyni zamanda özünə ”Azadlıq” adlı partiya qurmuş Qrant Baqratyan deyir.

Əslində, sabiq baş nazirin deyib arzuladıqları artıq bu gün Ermənistanda ”reallaşıb”. Təbii ki, rusların rublla satdıqları qaz və neftdən ermənilərin nə qədər irəli düşdükləri barədə xəbərsiz olsaq da, amma Ermənistana gəlib burada müvəqqəti də olsa, iş quran rusların, o gün də dediyimiz kimi, elə tör-töküntüsü erməniləri qane etməlidir.



İndi Qrant Baqratyanın dediklərindən belə başa düşülür ki, ”nəticə elə də pis deyil”. Maraqlıdır, bəs onda sabiq naziri qane etməyən nədir?

Sən demə, rusların Ermənistana gətirdiyi rus rubllarının çoxluğu Ermənistanda rublun profisitini yaradıbmış. Bilirsiniz profisit nədir? Mən də bilmirdim, amma axtarşb öyrəndim. Deməli, profisit ölkədə yaranan büdcə artıqlığıdır. Yəni, büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği. Deyim ki, bu mənə bizim o filmdəki ”...ayə, bu qədər də barıt qoyarlar?” ifadəsini xatırlatdı.

O da maraqlıdır ki, bu gün ermənilərin milli valyutaları olan darmın müvəqqəti də olsa ”təxtə çıxmasını” məhz bununla əlaqələndirən Baqratyan baş verənlərdə günahkar kimi Ermənistan Mərkəzi Bankını görür.

Amma o əmindir, ”...dramın yenidən qiymətləndirilməsi uzun sürməyəcək, bu birdəfəlik hadisədir, müharibə bitəndən sonra bu təsir tədricən aradan qalxacaq”.

İndi erməni iqtisadiyyatında kiçik də olsa artım olduğunu deyən Baqratyan, bu artımın ucuz, spekulyativ artım olduğunu da etiraf edir: ”...hazırda Rusiyadan daşıyırıq, ruslar gəlib, restoranlarda çoxlu çörək verirlər, burada cüzi artım var. Amma bu, müharibə bitəndən sonra azalacaq spekulyativ artımdır”.

Təbii ki, bir müddət bundan əvvəl Putinin ölkəni tərk edən rus iş adamlarının Rusiyaya qayıtmağın vaxtının çatdığını söyləməsi başqa ermənilər kimi, Baqratyanı qane etdiyini deyə bilməsəm də, amma o yaxın 10-15 ildə Rusiya Federasiyasına qarşı tətbiq edilən sanksiyaların aradan qaldırılmayacağına ”əmindir”. Lakin bununla belə Baqratyan bildirir ki, ”Rusiyada iqtisadi fəallığı inkişaf etdirmək mümkün olacaq dərəcədə zəiflədiləcək”.

Ermənistanda son 6 ayda ərzaq məhsulları xəttində 13-14, dollar qiymətlərində isə 40 faiz artım olduğunu deyən sabiq nazir bununla belə ölkədə pensiyanın bir dram belə artmadığını diqqətə çatdırıb. Baqratyana görə, bu gün biz təqaüdçülərimizi, sadəcə olaraq varlığını, hətta ölümlə qurtarmağa məhkum edirik: ”...təkcə onu demək lazımdır ki, son 20-25 il ərzində onlar heç vaxt belə pis yaşamamışdılar”.

Qeyd edək ki, Rusiya-Ukrayna müharibəsi başa çatdıqdan sonra Ermənistanın 2019-cu ildəki vəziyyətə qayıtmasının mümkünlüyü ilə bağlı səslənən fikirlərə Baqratyanın cavabı birmənalı olmayıb. Əslində, isə o bu cavabdan yayınmağa çalışıb.

Yeri gəlmişkən, Ermənistanın tənəzzülü, ələbaxımlığı barədə yazan erməni mətbuatı, təbii ki, Azərbaycandakı inkişafı ”həzm edə bilməsə də” amma bəzi etiraflarda bulunmağa məcbur olub. Belə ki, iyunun 26-da Azərbaycanın Kəlbəcər və Laçın rayonlarına səfər edən Prezident İlham Əliyevin burada ordunun xüsusi təyinatlı dəstəsinin hərbi hissəsinin açılışını etdiyini, Tərtər çayında yeni su elektrik stansiyasında olduğunu, 13 kilometrlik tunelin tikintisi ilə tanışlığını, Mrov dağlarının altında, Ağar çayı üzərində böyük su anbarı çəkdirdiyini, keyfiyyətli asfalt yolları yoxladığını, həmçinin bir sıra digər mühüm layihələri elan etdiyini qısqanclıqla da olsa etiraf edirlər.

Azərbaycanın geri aldığı rayonları möhkəmləndirdiyini, kommunikasiyalar apardını, logistika yaratdığını, əraziləri geniş məskunlaşma üçün hazırladığını, bunun üçün nəhəng strateji layihələr həyata keçirdiyini və onlara vəsait əsirgəmədiyini həsədlə də olsa müşahidə etdiklərini yazır.

...Əslində, bunlar xəbis erməni qısqanclığı kimi qəbul edilməlidir, doğrudan da, o ”inkişaf” hara, bu inkişaf hara...

***Ağasəf Babayev***

---

# “Bu gün müxalifət özünü bazara çıxarıb”

**“Müxalifət kütləvi tədbir təşkil etmək gücünə malik deyil. Müxalifət təmsilçiləri nə qədər bu reallığı gizlətsələr də, kütləvi şəkildə insanların gəlməməsi onları pərt vəziyyətdə qoyur. Bu da müxalifətin aciz və bacarıqsız durumunda olduğunu bir daha göstərir”. Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, müxalifətin özünün özündən başı çıxmır. Çünki müxalifət əvvəlcədən dərk etməlidir ki, onun heç bir siyasi gücü yoxdur ki, onlar ölkədə nə isə kütləvi tədbirlərini keçirə bilsinlər. Yersiz hərəkətlərinin nəticəsidir ki, müxalifət bu cür acınacaqlı bir duruma düşüb”.

T.Novruzov onu da bildirdi ki, müxalifət təmsilçiləri vaxtaşırı müəyyən məsələlər tapırlar ki, gündəmdə bir müddət qala bilsinlər: ”Bununla da diqqəti özlərinə cəlb etmək istəyirlər. Amma müxalifət təmsilçiləri bilməlidirlər ki, onlar bu cür yersiz hərəkətləri ilə özlərini daha da gözdən salırlar. Müxalifət təmsilçiləri çalışırlar ki, xaricdə olan bəzi qüvvələrə özlərini göstərsinlər. Bununla da onlardan maddi və mənəvi dəstək əldə etməyə ümid bəsləyirlər. Yəni bu gün müxalifət özünü bazara çıxarıb. Bu hərracda kim nə qədər və hansı şərtlərlə ödəniş edəcəyini düşünür”.

T.Novruzov onu da bildirdi ki, müxalifət partiya sədrləri çox gözəl başa düşürlər ki, bu gün onların hakimiyyətə gəlmək şansları yoxdur: ”Çünki müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Müxalifət təmsilçiləri bu reallığı bilə-bilə yenə də öz hərəkətlərindən əl çəkmək niyyəti yoxdur. Yəni müxalifət təmsilçiləri reallığı özündə əks etdirməyən xəyallar qururlar”.

***Gülyana***

---



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Erməni simulyasiyasına cavab: sülh gündəmi yoxdursa münaqişə gündəmi var

Bir müddət əvvəl Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) rəhbəri Ceyhun Bayramov Ermənistan-Azərbaycan münasibətlərinin vəziyyəti barədə şərh verərək bütün treklər üzrə müəyyən staqnasiya vəziyyətinin olması barədə eyham vurmuşdu. Misal üçün, nəqliyyat üzrə iş gedir, amma həll olunmayıb, yəni Ermənistan üçtərəfli Bəyanatda əks olunan və üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməyib. Sərhəd məsələsinə isə Moskvada gözlənilən növbəti danışıqlar raundunda aydınlıq gətiriləcək. Sülh sazişinin əldə olunması faktorunda da Ermənistanın vaxtı uzatmaq prosesi müşahidə edilir - erməni tərəfi ”status” məsələsini gündəmdə saxlamağa çalışır, amma eyni zamanda həmin mövzuya aydınlıq gətirmir ki, hansı istiqamətdəki ”statusdan” dəm vurur? Yaxud, ”plankasını” endirmək barədə bəhs edərkən hansı çərçivədən çıxış edir? Çünki o da bəllidir ki, Azərbaycan ümumiyyətlə, ”status” məsələsini müzakirə etmir, hətta bu mövzunu yaxınına belə buraxmır və buraxmayacaq da! Sadəcə, bütün bunları ümumiləşdirərkən belə bir sual meydana gəlir: axı çox maraqlıdır və ki, Ermənistan nə istəyir? İrəvanın danışıqlar mövqeyinin məğzi, məramı nədən ibarətdir?

Fakt budur ki, 44 günlük müharibə 20 aydan çoxdur başa çatıb, amma sonrakı proseslərdə erməni tərəfi heç bir nəticə göstərməyib (?!). Üstəlik, hər zamankı kimi, bu kimi hallarda Rusiya bir tərəfdən, Avropa İttifaqı da o biri tərəfdən aktivləşiblər...

Bu gün hər kəsə dəqiq məlumdur ki, Azərbaycan nəticənin olmadığı halda sülhə məcburetmə yolunu aktual olaraq saxlamaqdadır və söz yox ki, növbəti mərhələlərdə fərqli təkliflərlə çıxış edə bilər. Misal üçün, biz burada Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımadığı halda, Azərbaycanın tarixi Qərbi Azərbaycan torpaqlarına hüquqi iddialarını xatırlaya bilərik. Fakt budur ki, hazırkı dövrə qədər üçtərəfli Bəyanat birtərəfli qaydada realizə olunur və həmin təktərəfli realizə uzun müddət davam edə bilməz! Bəs nə etməli, erməni tərəfinin ağıllanması istiqamətində yenidən hansı addımları atmalı..?

Sülh sazişinin imzalanması istiqamətində Ermənistan Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul edir, amma yuxarıda da qeyd olunduğu kimi, hansısa ”status” mövzusunu da ortaya atır. Bax, bu məsələdən bərk yapışmaqla, üstəlik həmin mövzunu tamamilə bağlamaq üçün yetərincə şərait yaranıb. Məsələn, sülh sazişinin imzalanması vədi ilə deyək ki, qonşu Gürcüstanın paytaxtı Tiflisdə iki ölkənin - həm Azərbaycanın, həm də Ermənistanın milli nümayəndə heyətlərinin görüşlərini təşkil etmək olar. Buna qədər isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyana telefon zəngi edib, həmin təklifi səsləndirmək mümkündür. Məhz həmin zəngdən sonra Tiflisə uçmaq və orada Mirzoyanın gəlmədiyini faktiki olaraq bütün dünyaya sübuta yetirmək, çünki o həqiqətən də gəlməyəcək... Daha dəqiq desək, Ermənistan rəhbərliyinin bu addıma getməsi üçün siyasi iradəsi yoxdur və görünür ki, bundan sonra da olmayacaq!

Təbii ki, həmin aralıqda Rusiya, ABŞ, Aİ, hətta Kanadanın yeni açılmış səfirliyi və s. dərhal Ermənistanın lütləşmiş mövqeyinə donlar geyindirməklə paralel olaraq simulyasiyalarına, ya da oyunbazlıqlarına müxtəlif məqamlardan təsir göstərəcəklər. Axı vaxt da daralmağa doğru gedir və dayanmır!

Qeyd olunduğu kimi, erməni tərəfi beş prinsipi qəbul edib. Bundan sonra isə cəmi iki variant qalır və hər iki variantda da Ermənistan özünün ölüm fərmanına imza atmış olur - ya Mirzoyan əvvəlki kimi görüş yerinə gələcək, daha əvvəlki ifadə və bəyanatlarını səsləndirəcək, bununla Azərbaycana qarşı ərazi iddialarının gündəmdə qaldığını nümayiş etdirəcək, ya da Mirzoyan gəlməyəcək və sadəcə bütün dünya şahidi olacaq ki, Ermənistan əsla sülh istəmir və regionda sabitliyin, inkişafın tərəfdarı deyil.

Buradan isə Azərbaycana pas ötürüləcək - hüququnu müdafiə etmək üçün legitimlik pasını! Bəli, Ermənistan danışıqlar gündəmində normal mühitin yaranmasının əhəmiyyətini hələ də anlamır, yaxud anlayır və özünü anlaqsız aparır. Amma belə davranış İrəvan üçün heç bir üstünlük bəxş etmir, hətta xarici tərəfdaşlarına bel bağlasa belə onun köməyinə kimsə çatmayacaq. Beləliklə, sülh gündəmi yoxdursa, münaqişə variantı gündəmdəki yerini möhkəmləndirir, özü də bütün mümkün güc vasitələri ilə. Hələlik isə gözləyirik...

# Regionda sülh və əməkdaşlıq üçün şərtlər budur

***Xəbər verildiyi kimi, iyulun 11-də Ermənistanın baş naziri Nikol Paşinyan ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Paşinyan Türkiyə liderini Qurban bayramı münasibətilə təbrik edib. Ərdoğan öz növbəsində Ermənistanın baş nazirini Vardavar bayramı münasibətilə təbrik edib.***

Ermənistan hökumətinin məsajında həmçinin bildirilir ki, iki ölkə liderləri regionda sülhün və sabitliyin möhkəmlənməsinə töhfə verəcək münasibətlərin normallaşdırılması üzrə ikitərəfli prosesin vacibliyini vurğulayıblar. Tərəflər iki ölkənin xüsusi nümayəndələrinin iyulun 1-də keçirilən görüşündə əldə olunan razılaşmaların yaxın gələcəkdə həyata keçiriləcəyinə ümidvar olduqlarını bildiriblər.

Eyni zamanda xatırlatmaq yerinə düşər ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi çoxdan başlayıb, lakin vəziyyət hələ də praktiki olaraq başlanğıc xəttindədir. Ermənistanın baş naziri ilə Türkiyə prezidenti arasında telefon danışığının işlərin ölü nöqtədən getdiyi anlamına gəlirmi və bu Ermənistan-Azərbaycan nizamlanmasına necə təsir edəcək?

Bu barədə azərbaycanlı politoloq Fərhad Məmmədov və rusiyalı iqtisadçı, Avrasiya üzrə ekspert Aleksandr Razuvayev "Caliber" analitik mərkəzinə fikirlərini bildiriblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

F.Məmmədov hesab edir ki, Ermənistan və Türkiyə arasında bir neçə raund danışıqlardan sonra danışıqlar aparan tərəflər hansı yolla hərəkət edə biləcəklərini başa düşürlər. Eyni zamanda, ekspertin fikrincə, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi iki formatdan birində baş verə bilər: böyükdən kiçiyə və ya kiçikdən böyüyə.

"Birinci halda diplomatik münasibətlərin qurulması, sərhədlərin rəsmi açılması və s. kimi daha mühüm məsələlər həll olunur. Əsasən texniki xarakter daşıyan növbəti addımlar həyata keçirilir. İndi görürük ki, proses kiçikdən böyüyə formatda gedir və ilk növbədə ermənilərin Ermənistan-Türkiyə sərhədinin bağlanmasının, yəni Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalının əsas səbəbini tanımaq istəməməsi səbəbindəndir. Ona görə də Ermənistan tərəfi nə qədər prosesin ilkin şərtsiz getməli olduğunu desə də, Türkiyənin əsas şərti Azərbaycanla münasibətlərin normallaşmasıdır. Yəni erməni tərəfinin rəqs etməli olduğu kiçik şey budur.

Əgər Ermənistan Azərbaycana qarşı ərazi iddiaları ilə eynilik təşkil edən Qarabağın statusu ilə bağlı tezislər irəli sürməkdə davam edərsə, sülh müqaviləsini imzalamaqdan imtina edərsə, o zaman Ermənistan-Türkiyə münasibətlərinin tam normallaşmasından danışmağa ehtiyac qalmayacaq. Təbii ki, tezliklə həyata keçiriləcək bəzi qərarlar var, lakin biz başa düşməliyik ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasının istənilən elementi Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı konkret qərarlarla şərtlənir və şərtlənməlidir", - politoloq bildirib.



**Fərhad Məmmədov:** Erməni tərəfinin guya erməni cəmiyyətinin Türkiyə və Azərbaycanla yaxınlaşmanı dərk etməməsi, bunun daha çox vaxt tələb etməsi və s.-lə bağlı bütün arqumentləri əsassızdır və ciddi qəbul edilə bilməz

Azərbaycanlı analitik xatırladıb ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin üç istiqaməti həyata keçirilməlidir: kommunikasiyaların açılması, sərhədlərin demarkasiyası və delimitasiyası və sülh müqaviləsinin imzalanması.

"Bu gün İrəvanla Bakı arasında ən çox inkişaf kommunikasiyaların açılmasındadır. Türkiyə-Ermənistan danışıqları yolu ilə kommunikasiya xətlərinin bərpası üçün də səylər göstərilir. Yəni, bu halda sərhədlərin açılmasından söhbət gedə bilməz. Ola bilsin ki, sərhədlərin qismən açılması məsələləri müzakirə olunur, şərti olaraq, üçüncü ölkə vətəndaşları üçün bir nöqtədə, hava yüklərinin daşınması və s., amma bundan artıq deyil. Razılaşdırılmış iş tam olaraq kommunikasiyaların blokdan çıxarılması istiqamətində gedir.

Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulmasına gəlincə, bu, İrəvanla Bakı arasında sülh müqaviləsi imzalandıqdan sonra mümkün olacaq. Bu və ya digər şəkildə Ermənistan-Türkiyə münasibətlərinin normallaşması istiqamətində istənilən addım Ermənistan-Azərbaycan nizamlanması yolunda irəliləyişlə şərtlənməlidir", - agentlik hesab edir.

Buna baxmayaraq, azərbaycanlı politoloq hesab edir ki, Ermənistan-Türkiyə münasibətlərində müəyyən irəliləyiş var, lakin bundan sonra hər şey Ermənistan rəhbərliyinin davranışından, qərarlarından və bəyanatlarından asılıdır.

F.Məmmədov qeyd edir: "Son 2-3 ayda Ermənistanın parlament müxalifətinin qaldırdığı anti-Türkiyə və anti-Azərbaycan isterikasının nəinki kritik miqyas aldığının, hətta özünün bir sıra tənqidlərə məruz qaldığının şahidi olduq. Ona görə də erməni tərəfinin guya erməni cəmiyyətinin Türkiyə və Azərbaycanla yaxınlaşmanı dərk etməməsi, bunun daha çox vaxt tələb etməsi və s.-lə bağlı bütün arqumentləri əsassızdır və ciddi qəbul edilə bilməz. Türkiyə və Azərbaycan tərəfləri Ermənistandan siyasi iradə nümayiş etdirərək, sülh müqaviləsinin imzalanması və bir-birinə ərazi iddialarından imtinadan ibarət olan tammiqyaslı normallaşmaya getməyi tələb edir".

Öz növbəsində rusiyalı ekspert A.Razuvayev əmindir ki, Cənubi Qafqazın hər 3 keçmiş Sovet respublikası- Azərbaycan, Ermənistan, Gürcüstan, eləcə də region ölkələri- Türkiyə, İran və Rusiya normal mehriban qonşuluq münasibətlərində maraqlıdırlar.

"Təbii ki, bütün bu ölkələr aktiv ticarətdə maraqlıdır və buna görə də bütün ticarət yollarının açılmasında maraqlıdır. Bu, iqtisadiyyatı koronavirus pandemiyasından ağır zərbə alan Ermənistan üçün də sərfəlidir. Pandemiya ilə əlaqədar Ermənistanda beynəlxalq turizm sferası geriləyib.



**Aleksandr Razuvayev:** Qərb Avrasiya xalqlarının öz aralarında çəkişmələrində maraqlıdır. Ümid etmək olar ki, Qərb dövlətləri istədiklərinə nail olmayacaq və müvafiq olaraq regionda sülh hökm sürəcək

Bundan əlavə, Rusiya iqtisadiyyatında Qərbin sanksiyaları səbəbindən problemlər var, ona görə də Ermənistandan gələn əmək miqrantlarına tələbat azalıb ki, bu da Ermənistan iqtisadiyyatına təsir edir. Bu kontekstdə iqtisadi baxımdan Ermənistanın Türkiyə və Azərbaycanla münasibətlərini normallaşdırması məntiqlidir. Bundan hər kəs faydalanacaq.

Hesab edirəm ki, Paşinyan ölkəsi üçün iqtisadi faydaları yaxşı bilir və ona görə də həm Ankara, həm də Bakı ilə normal münasibətlər qurmaq istəyir", - rusiyalı ekspert hesab edir. Lakin A.Razuvayevin fikrincə, bu yaxınlaşmanın əleyhinə olan qüvvələr var.

"Əvvəla, bu, millətçi hisslərin kifayət qədər güclü olduğu erməni diasporudur. Və təbii ki, Qarabağın Cənubi Qafqaz regionunda qaynar nöqtə kimi qalmasında maraqlı olan Qərb Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının əleyhinədir.

Bütövlükdə Qərb Avrasiya xalqlarının öz aralarında çəkişmələrində maraqlıdır. Ümid etmək olar ki, Qərb dövlətləri istədiklərinə nail olmayacaq və müvafiq olaraq regionda sülh hökm sürəcək, Azərbaycan, Ermənistan və Türkiyə vətəndaşlarının rifahı yüksələcək",- Avrasiya üzrə ekspert yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***




Azərbaycan Respublikasının Mediaının İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Uşaqlarda travmalar niyə yaranır?

"Uşaqlarda yaranan travmaların səbəbi müxtəlifdir". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Leyla Fətəli bildirib. Onun sözlərinə görə, travmaların yaranması uşaqlıqda baş verən hadisələrlə əlaqədardır: "Ata və ana arasında olan münaqişələr, onların ayrılması, ailədə tez-tez baş verən söz-söhbətlərin olması uşaqda travmalara səbəb olur. Yaxud da uşaq nədənsə qorxduqda da travma ala bilər. Uşaq və yeniyetmə psixologiyasına zidd olan hər bir şeydən uşaq travma ala bilər. Bu travmaların bəs gələcəkdə nə kimi fəsadları ola bilər? Təbii ki, travmalar uşağın yeniyetməlik, gənclik dövrünə kimi davam edir. Özü anlayana və ya mütəxəssis tərəfindən korreksiya edilənə qədər bu travmalardan əziyyət çəkir.

Misal olaraq deyə bilərəm ki, ana-ata arasında baş verən münaqişələr böyüdükdə uşağın yaddaşından silinmir. Uşaq da ailə qurmaqdan çəkinir və düşünür ki, mən də valideynlərim kimi ola bilərəm. Uşaqlıqda alınan travmalar insanın ümumi həyatını idarə edir".

***Abutel İlhamqızı***



**Bakıda qızmar yayda istirahət üçün ən münasib məkanlardan biri də dəniz kənarıdır, xüsusilə Şıx (və ya Şıxov) çimərliyi: həm məsafə yaxındır, həm də xüsusi xərc tələb etmir və yaxud etməməlidir. İlk təəssüfedici odur ki, Şıx çimərlərində istirahət məkanları həddən artıq azdır. Bu azlıq isə qiymətlərə ciddi təsir göstərir. Ümumilikdə isə bu il ötən illə müqayisədə qiymətlər arasında kəskin fərq var.**

Məsələn, ötən il "Aquapark"a giriş 7 yaşa qədər uşaqlar üçün pulsuz, 14 yaşa qədər uşaqlar üçün 6, böyüklər üçün 12 manat idisə, hazırda 14 yaşa qədər uşaqlar üçün 15, böyüklər üçün 20 manat tələb edilir, uşaqlara güzəşt ləğv edilib.

Axar.az bildirir ki, bu, yalnız "Aquapark"a girişə aiddir: kənardan ərzaq gətirilməsinə imkan verilmir; yemək, su və s. üçün əlavə ödənişlər edilməlidir. "Aquapark"la yanaşı olan keçmiş deputat, yazıçı Hüseynbala Mirələmova məxsus "1001 gecə" çimərlik-restoranında da qiymətlər kəskin bahalaşıb.

Ötən il "1001 gecə" çimərliyinin ərazisinə yalnız maşınla daxil olanlardan parkinq xidmətinin ödənilməsi tələb edilirdi - 3 manat. Hazırda giriş hər kəs üçün 3 manatdır. Dəniz sahilində yalnız günlük - masa, oturacaq-filan yoxdur - 20 manatadır. Ötən il günlüklü masalar-köşklər 30 manat depozitlə verilirdi: sifarişlər bu vəsaiti aşardısa və təbii ki, aşırdı, əlavə pul ödənilirdi, heç bir sifariş edilmədiyi halda 30 manat ödəniş kifayət edirdi.

# Bakı
## çimərliyində bir günlük dincəlməyin Şok qiyməti!





Hazırda isə günlüklü masalarda ən azı 60 manat sifariş edəcəyin halda oturmağa icazə verilir. Başqa sözlə, qiymətlər tam iki dəfə bahalaşıb. 60 manatı aşmaq isə çox "asandır": qiymətlər Bakının ən məşhur restoranlarından ikiqat bahadır.

Lökbatan dairəsinə doğru yerləşən daha iki pullu çimərliklərdən isə danışmağa dəyməz: giriş 45 manat - xidmətin qiymətlərini artıq təsəvvür edirsiniz.

Şıx çimərliyi ərazisindən paytaxtın mərkəzinə saat 19:00-dan etibarən taksi qiymətləri 15 manatdan başlayır. Bir az da geciksəniz, "28 May" metrosuna 20 manata gəlməyə məcbursunuz.

Beləliklə, bir ailənin bir neçə saat Şıx çimərliyində istirahəti ən azı 120-150 manat civarındadır. Müqayisə üçün internetdə xırdaca axtarışla qiymətlərə baxdıq: Antalyada 7 gün qalmaq, qarşılanma, təyyarə bileti, gündə 3 dəfə yemək, sığorta və s. daxil bütün xərclər 639 manatdan başlayır.

**"İyulun 14-dən 16-nadək Bakıda və Abşeron yarımadasında arabir güclənən şimal-qərb küləyi əsəcək". Bu sözləri SİA-ya açıqlamasında Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova deyib.**

# Yaxın üç gün ərzində hava necə olacaq?





Onun sözlərinə görə, küləyin maksimal sürəti 15-20 m/s, bəzi yerlərdə isə 23-25 m/s olacaq: "16 iyulda gündüz saatlarında şimal küləyi əsəcək. Havanın temperaturu 33-38 dərəcəyədək olacağı gözlənilir. Bölgələrdə iyul ayının ikinci 10 günlüyünün sonunadək bəzi rayonlarda isti hava şəraitinin davam edəcəyi gözlənilir. Havanın maksimal temperaturu 37-40 dərəcə, bəzi yerlərdə 42-43 dərəcə, dağlarda isə 30-33 dərəcəyədək yüksələcəyi proqnozlaşdırılıb. Qərb küləyi arabir 15-18 m/s olacaq. 14 iyul axşam saatlarından 16 iyul səhərədək, 17 iyulda axşam saatlarından 20-dək bəzi rayonlarda küləyin maksimal sürəyi 20-25 m/s-dək olacaq".

***Arzu Qurbanlı***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**